FİKRƏT ƏMİROV Biblioqrafiya



*Azərbaycanın görkəmli şəxsiyyətləri*

# FİKRƏT ƏMİROV

## Biblioqrafiya

Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

Azərbaycan
Milli Kitabxanası

*Azərbaycanın görkəmli şəxsiyyətləri*

# Fikrət Əmirov

*(Fikrət Məşədi Cəmil oğlu Əmirov)*

*Biblioqrafiya*

**Bakı – 2022**

**KBT: Я19:Щ313(2A)7-8я1**
**UOT: 016:78.071.1(479.24)**

**Tərtib edən:** **Mədinə Vəliyeva**

**Elmi redaktor:** **Kərim Tahirov,**
*Professor,*
*Əməkdar mədəniyyət işçisi*

**Ön sözün müəllifi:** **Siyavuş Kərimi,**
*Xalq artisti, professor*

**Redaktor:** **Mehriban Cəfərova**

**Fikrət Əmirov** (Fikrət Məşədi Cəmil oğlu Əmirov): biblioqrafiya / Tərt. ed.: M.Vəliyeva; elmi red. K.Tahirov; ön söz. müəl. S. Kərimi; red. M.Cəfərova. – Bakı, 2022. – 496 s.

Azərbaycan Milli Kitabxanasının "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından tərtib etdiyi "Fikrət Əmirov" biblioqrafiyası Azərbaycanın görkəmli bəstəkarı, SSRİ-nin və Azərbaycan Respublikasının Xalq artisti Fikrət Əmirovun anadan olmasının 100 illiyinə həsr edilmişdir. Biblioqrafiyada bəstəkarın əsərləri – notları, kitabları, eləcə də həyat və yaradıcılığı haqqında materiallar, habelə dünya milli kitabxanalarında mühafizə olunan əsərlər öz əksini tapmışdır.

Biblioqrafiya sənətşünaslar, musiqişünaslar, tədqiqatçılar, kitabxanaçı-biblioqraflar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

ISBN 978 9952 554 21 2

**© Azərbaycan Milli Kitabxanası, 2022**

Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

Azərbaycan
Milli Kitabxanası

*Prominent personalities of Azerbaijan*

# Fikret Amirov

*(Fikret Mashadi Jamil oglu Amirov)*

*Bibliography*

Baku – 2022

**KBT: Я19:Щ313(2А)7-8я1**
**UOT: 016:78.071.1(479.24)**

**Compiled by:** **Medine Veliyeva**

**Scientific editor:** **Karim Tahirov,**
*professor,*
*Honored Cultural worker*

**Author of the foreword:** **Siyavush Karimi,**
*People's artist, professor*

**Editor:** **Mehriban Jafarova**

**Fikret Amirov** (Fikret Mashadi Jamil oglu Amirov): bibliography / compiled by: M.Veliyeva; scientific ed.: K.Tahirov; auth. of the for.: S. Karimi; ed. M.Jafarova. – Baku, 2022. – 496 p.

The "Fikret Amirov" bibliography compiled by the National Library of Azerbaijan from the series "Prominent personalities of Azerbaijan" is dedicated to the 100th anniversary of the birth of Fikret Amirov, the outstanding composer of Azerbaijan, People's Artist of the USSR and the Republic of Azerbaijan. The bibliography includes the composer's works - notes, recordings, books, as well as materials about his life and work, as well as publications preserved in national libraries around the world.

The bibliography is designed for art critics, musicologists, researchers, librarian-bibliographers and a wide range of readers.

© Azerbaijan National Library, 2022

Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

Azərbaycan
Milli Kitabxanası

*Выдающиеся деятели Азербайджана*

# Фикрет Амиров

*(Фикрет Мешадú Джамúль оглы Амиров)*

***Библиография***

Баку – 2022

**KBT: Я19:Щ313(2A)7-8я1**
**UOT: 016:78.071.1(479.24)**

**Составитель:** **Медина Велиева**

**Научный редактор:** **Керим Тахиров,**
*Профессор,*
*Заслуженный работник культуры*

**Автор предисловия:** **Сиявуш Керими,**
*Народный артист, профессор*

**Редактор:** **Мехрибан Джафарова**

**Фикрет Амиров** (Фикрет Мешадú Джамúль оглы Амиров): библиография / Сост.: М.Велиева; науч. ред. К.Тахиров; автор предс. С. Керими; ред. М.Джафарова. – Баку, 2022. – 496 с.

Библиографический указатель из серии «Выдающиеся деятели Азербайджана», изданный Азербайджанской Национальной Библиотекой посвящен к 100-летию со дня рождения азербайджанского композитора, народному артисту СССР и Азербайджана Фикрету Амирову. В библиографии отражены ноты, звукозаписи, музыкальные произведения, книги и ценные материалы о жизни и творчестве композитора, а также издания его произведений, хранящихся в крупнейших национальных библиотеках мира.

Библиография предназначена для искусствоведов, музыковедов, исследователей, библиотекарей-библиографов и широкого круга читателей.

**© Национальная Библиотека Азербайджана, 2022**

## Fikrət Əmirovun 100 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2022-ci ilin noyabr ayında görkəmli bəstəkar, tanınmış ictimai xadim, SSRİ və Azərbaycan Respublikasının Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan Respublikasının Dövlət mükafatları laureatı, Azərbaycan Respublikası Elmlər Akademiyasının müxbir üzvü Fikrət Məşədi Cəmil oğlu Əmirovun anadan olmasının 100 ili tamam olur.

Azərbaycan bəstəkarlıq məktəbinin böyük nümayəndəsi, simfonik muğam janrının banisi Fikrət Əmirov rəngarəng yaradıcılıq palitrasına malik qüdrətli sənətkar kimi mədəni sərvətlər xəzinəmizə misilsiz töhfələr bəxş etmişdir. Gücünü doğma torpaqdan alan, milli zəminə bağlı bəstəkar ecazkar xalq musiqisi və muğam ənənələrini müasir musiqi texnikası ilə uğurlu şəkildə birləşdirərək, neçə-neçə dəyərli opera, balet, simfoniya, mahnı, romans və kamera-instrumental əsər meydana gətirmişdir. Fikrət Əmirovun üslubuna xas lirik-romantik boyaların bütün əlvanlığı ilə öz əksini tapdığı bu müxtəlif janrlı sənət nümunələrində milli ruh, fəlsəfi-psixoloji dərinlik və melodik gözəllik hakimdir. Həmin əsərlər dünyanın bir sıra ölkələrindəki mötəbər konsert salonlarında məşhur orkestrlərin ifasında müvəffəqiyyətlə səslənmiş və müəllifinə geniş coğrafiyada şöhrət qazandırmışdır. Yüz





illiyinin UNESCO-nun 2022-2023-cü illər üzrə görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin yubileyləri proqramına daxil edilməsi Fikrət Əmirov sənətinə beynəlxalq miqyasda yüksək qiymət verilməsinin təzahürüdür. Fikrət Əmirovun vətənpərvərliyə səsləyən, daim mənəvi zənginlik aşılayan və bəşəri ideallar tərənnüm edən, nailiyyətlərlə zəngin irsi Azərbaycan musiqi sənəti salnaməsinin ən parlaq səhifələrindəndir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan musiqi mədəniyyətinin inkişafında xüsusi xidmətləri olan görkəmli bəstəkar Fikrət Əmirovun 100 illik yubileyinin keçirilməsini təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Bəstəkarlar İttifaqının təkliflərini nəzərə almaqla, Fikrət Əmirovun 100 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 15 mart 2022-ci il*



## Распоряжение Президента Азербайджанской Республики о проведении 100-летнего юбилея Фикрета Амирова

В ноябре 2022 года исполняется 100 лет со дня рождения выдающегося композитора, известного общественного деятеля, народного артиста СССР и Азербайджанской Республики, Героя Социалистического труда, лауреата государственных премий СССР и Азербайджанской Республики, члена-корреспондента Академии Наук Азербайджанской Республики Фикрета Мешади Джамиль оглу Амирова.

Видный представитель азербайджанской композиторской школы, основоположник жанра симфонического мугама Фикрет Амиров как могучий мастер, обладавший разнообразной творческой палитрой, внес неоценимый вклад в сокровищницу наших культурных ценностей. Композитор, черпавший силы в родной земле, привязанный к национальной основе, удачно синтезировав восхитительную народную музыку и мугамные традиции с современной музыкальной техникой, создал прекрасные оперы, балеты, симфонии, песни, романсы и камерно-инструментальные произведения. В этих образцах искусства различного жанра, в которых во всем своем разнообразии нашли отражение лирико-романтические краски, свойственные стилю Фикрета Амирова, господствуют национальный дух, философско-психологическая





глубина и мелодичная красота. Эти произведения с успехом звучали в исполнении известных оркестров в знаменитых концертных залах в ряде стран мира и снискали автору славу на широком географическом пространстве. Включение столетия Фикрета Амирова в программу юбилеев выдающихся личностей и знаменательных событий ЮНЕСКО в 2022-2023 годах является свидетельством высокой оценки его творчества в международном масштабе. Богатое достижениями наследие Фикрета Амирова, призывающее к патриотизму, постоянно прививающее духовность и воспевающее общечеловеческие идеалы, является одной из наиболее ярких страниц летописи азербайджанского музыкального искусства.

Руководствуясь пунктом 32 статьи 109 Конституции Азербайджанской Республики, в целях обеспечения проведения 100-летнего юбилея выдающегося композитора Фикрета Амирова, которому принадлежат особые заслуги в развитии азербайджанской музыкальной культуры, постановляю:

1.Министерству культуры Азербайджанской Республики с учетом предложений Союза композиторов Азербайджана подготовить и осуществить план мероприятий, связанных со 100-летним юбилеем Фикрета Амирова.

2.Кабинету Министров Азербайджанской Республики решить вопросы, вытекающие из настоящего Распоряжения.

**Ильхам Алиев,**
*Президент Азербайджанской Республики*
*город Баку, 15 марта 2022 года*

## Göstərici haqqında

2022-ci il noyabr ayının 22-də görkəmli Azərbaycan bəstəkarı, SSRİ-nin və Azərbaycan Respublikasının Xalq artisti, Azərbaycan Respublikasının Dövlət mükafatı laureatı, Sosialist Əməyi Qəhrəmanı, Azərbaycan SSR EA-nın müxbir üzvü, tanınmış ictimai xadim Fikrət Məşədi Cəmil oğlu Əmirovun anadan olmasının 100 illiyi tamam olur.

Bununla əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 15 mart 2022-ci il tarixində "Fikrət Əmirovun 100 illik yubileyinin qeyd edilməsi haqqında" Sərəncam imzalamışdır. UNESCO-nun 2021-ci il 9-24 noyabr tarixlərində Parisdə keçirilən 41-ci Baş Konfransı çərçivəsində dünya şöhrətli Azərbaycan bəstəkarı Fikrət Əmirovun (1922-1984) 100 illiyi "UNESCO-nun 2022-2023-cü illər üzrə yubileylər proqramı"na salınmış və bu yubileyin UNESCO səviyyəsində beynəlxalq miqyasda qeyd edilməsi təsdiq edilmişdir.

Azərbaycan mədəni fikir tarixinin bu əlamətdar hadisəsi münasibətilə M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından "Fikrət Əmirov" adlı fundamental biblioqrafiya tərtib etmişdir.

Bəstəkar haqqında ilk biblioqrafik göstərici 2009-cu ildə çap olunmuşdur (Fikrət Əmirov: biblioqrafiya / Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi, M.F.Axundov ad. Azərb. Milli Kitabxanası; tərt. ed. T.Məmmədova, A.Novruzova; elmi red. Z.Abdullayeva; burax. məsul və ixt. red. K.Tahirov; red. G.Səfərəliyeva. – Bakı: [Çinar-çap], 2009. – 271, [1] s.). 2012-ci ildə bəstəkarın anadan olmasının 90 illiyi münasibətilə Milli Kitabxana tərəfindən hazırlanan "Fikrət Əmirov – 90" adlı biblioqrafiya əlavə və düzəlişlərlə elektron resurs şəklində istifadəçilərə təqdim edilmişdir.

Bəstəkarın 100 illik yubileyi ilə əlaqədar olaraq Milli Kitabxanasının hazırladığı növbəti biblioqrafiya daha da təkmilləşdirilmiş, yeni bölmələr yaradılaraq, son illərin materialları da daxil edilərək istifadəçilərə təqdim edilir.





Vəsaitdə 1941-2022-ci illəri əhatə edən zəngin material toplanmışdır. Burada sənətkarın müxtəlif dövrlərdə bəstələdiyi musiqi əsərlərinin not nəşrləri, not əlyazmaları, əsərlərinin səsyazmaları, kitabları, dövri mətmuatda və məcmuələrdə dərc edilən məqalələri, həyat və yaradıcılığı haqqında materiallar Azərbaycan, rus və digər xarici dillər üzrə müvafiq bölmələrdə qruplaşdırılmışdır. Biblioqrafiyada "Fikrət Əmirov dünya milli kitabxanalarında" və "Fikrət Əmirov dünya universitet kitabxanalarında" bölmələri də öz əksini tapmışdır.

Göstəricidə ədəbiyyat xronoloji qaydada qruplaşdırılmış, daxildə isə əlifba sırası gözlənilmişdir. Biblioqrafik vəsaitdən istifadəni asanlaşdırmaq məqsədilə sonda Fikrət Əmirovun əsərlərinin – musiqi əsərlərinin və məqalələrinin adlar göstəricisi və haqqında yazan müəlliflərin əlifba göstəricisindən ibarət köməkçi aparat tərtib edilmişdir.

Kitabda "Fikrət Əmirovun həyat və yaradıcılığının əsas tarixləri", "Fikrət Əmirovun Azərbaycan musiqisi, muğam sənəti, görkəmli ədiblər və incəsənət xadimləri haqqında fikirləri", "Görkəmli şəxsiyyətlər Fikrət Əmirov haqqında" bölmələri də verilmişdir.

Biblioqrafiya sənətşünaslar, musiqişünaslar, Fikrət Əmirovun yaradıcılığını tədqiq edən və öyrənən elmi işçilər, tədqiqatçılar, konservatoriya və musiqi məktəbinin müəllimləri, tələbələri, kitabxanaçı-biblioqraflar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Nəşrlə bağlı arzu və rəylərini bildirəcək hər bir mütəxəssisə və oxucuya əvvəlcədən minnətdarlığımızı bildirir, təklif və iradlarını Azərbaycan Milli Kitabxanasına göndərmələrini xahiş edirik.

**Ünvan:** AZ-1000, Bakı şəh., Xaqani küç. 57.

E-**mail:** contact@anl.az

## About the pointer

On November 22, 2022, the famous Azerbaijani composer, People's Artist of the USSR and the Republic of Azerbaijan, laureate of State awards of the Republic of Azerbaijan, Hero of Socialist Labor, corresponding member of the EA of the Azerbaijan SSR, well-known public figure Fikret Mashadi Jamil oglu Amirov was born. It turns 100 years old.

In this regard, on March 15, 2022, the President of the Republic of Azerbaijan Ilham Aliyev signed the Decree "On the celebration of the 100th anniversary of Fikret Amirov". Within the framework of the 41st General Conference of UNESCO held in Paris on November 9-24, 2021, the 100th anniversary of the world-famous Azerbaijani composer Fikret Amirov (1922-1984) was included in the "UNESCO Jubilee Program for 2022-2023" and International celebration of this anniversary has been confirmed at UNESCO level.

On the occasion of this significant event in the history of cultural thought of Azerbaijan, the National Library of Azerbaijan named after M.F. Akhundov compiled a fundamental bibliography called "Fikret Amirov" from the series "Prominent personalities of Azerbaijan".

The first bibliographic index about the composer was published in 2009 (Fikret Amirov: bibliography / Ministry of Culture and Tourism of Azerbaijan, M.F. Akhundov Named Azerbaijan National Library; edited by T. Mammadova, A. Novruzova; scientific editor. Z.Abdullayeva; editor-in-chief and reference editor K.Tahirov; editor G.Safaraliyeva - Baku: [Chinar-chap], 2009. - 271, [1] p.). In 2012, on the occasion of the 90th anniversary of the composer's birth, the bibliography "Fikret Amirov - 90" prepared by the National Library was presented to users as an electronic resource with additions and corrections.

In connection with the 100th anniversary of the composer, the





next bibliography prepared by the National Library has been further improved, new sections have been created, and materials from recent years have been included and presented to users.

The fund contains rich material covering the years 1941-2022. Here, sheet music editions, sheet music manuscripts, recordings of his works, books, articles published in periodicals and anthologies, materials about his life and work are grouped in the relevant sections in Azerbaijani, Russian and other foreign languages. The sections "Fikret Amirov in world national libraries" and "Fikret Amirov in world university libraries" are also reflected in the bibliography.

In the index, the literature is grouped chronologically, and alphabetical order is expected inside. Finally, in order to facilitate the use of bibliographic resources, an auxiliary device consisting of an index of the names of Fikret Amirov's works - musical works and articles and an alphabetical index of the authors who wrote about him was compiled.

The book also contains the sections "The main dates of the life and creativity of Fikret Amirov", "Fikret Amirov's opinions about Azerbaijani music, mugham art, prominent writers and artists", "Prominent personalities about Fikret Amirov".

The bibliography is intended for art critics, musicologists, scientific workers who study and study the works of Fikret Amirov, researchers, conservatory and music school teachers, students, librarian-bibliographers and a wide readership.

We express our gratitude in advance to every specialist and reader who will express their wishes and opinions about the publication, and we ask them to send their suggestions and comments to the National Library of Azerbaijan.

**Address:** AZ-1000, Baku city, Khagani street. 57.
**E-mail:** contact@anl.az

## Об указателе

22 ноября 2022 года отмечается столетие со дня рождения выдающегося азербайджанского композитора, народного артиста СССР и Азербайджанской Республики, лауреата Государственной премии Азербайджанской Республики, Героя Социалистического Труда, члена-корреспондента Академии Наук Азербайджанской ССР, известного общественного деятеля Фикрета Амирова.

В связи с этим Президент Азербайджанской Республики Ильхам Алиев подписал 15 марта 2022 года Распоряжение «О праздновании 100-летнего юбилея Фикрета Амирова».

В рамках 41-й Генеральной конференции ЮНЕСКО, состоявшейся в Париже с 9 по 24 ноября 2021 года, 100-летие всемирно известного азербайджанского композитора Фикрета Амирова (1922-1984) было включено в «Программу юбилеев ЮНЕСКО на 2022-2023 годы» и утверждено празднование этого юбилея на уровне ЮНЕСКО в международном масштабе.

К этой знаменательной для культурной жизни Азербайджана дате Азербайджанская Национальная Библиотека им. М.Ф.Ахундова подготовила в серии «Выдающиеся деятели Азербайджана» фундаментальную библиографию «Фикрет Амиров».

Первый библиографический указатель о композиторе был издан в 2009 году (Фикрет Амиров: библиография / Мин-во Культуры и Туризма Азербайджанской Республики; Азербайджанская Национальная Библиотека им. М.Ф.Ахундова; сост. Т.Мамедова, А.Новрузова; науч. ред. З.Абдуллаева; отв. за вып. и спец. ред. К.Тахиров; ред. Г.Сафаралиева. – Баку: [Çinar-çap], 2009. – 271, [1] с.). В 2012 году, к 90-летию композитора работники библиотеки подготовили и представили пользователям новое электронное издание: «Фикрет Амиров – 90. Библиография» (с дополнениями и исправлениями).





Библиография, подготовленная Национальной Библиотекой к 100-летию композитора, является усовершенствованным изданием, включающим новые разделы с материалами последних лет.

Представленное читателям пособие охватывает ценные материалы с 1941 по 2022 годы. Разделы на азербайджанском, русском и других языках отражают произведения композитора – нотные издания и рукописи, книги и статьи, опубликованные в периодической печати, звукозаписи музыкальных произведений, а также материалы о жизни и творчестве Фикрета Амирова. В специальном разделе библиографии представлена литература, хранящаяся в национальных и университетских библиотеках мира.

Литература в библиографическом указателе представлена в хронологическом порядке, внутри же разделов сохраняется алфавитный порядок. Для облегчения работы с библиографическим пособием в конце его представлен именной указатель музыкальных произведений и статей Фикрета Амирова, и алфавитный указатель авторов, писавших о композиторе.

В книге представлены разделы: «Основные даты жизни и творчества Фикрета Амирова», «Высказывания Фикрета Амирова об азербайджанской музыке, искусстве, мугаме и о выдающихся личностях и деятелях искусства» и «Высказывания известных личностей о Фикрете Амирове».

Библиография предназначена для искусствоведов, музыковедов, ученых-исследователей творчества Фикрета Амирова, студентов консерваторий и учащихся музыкальных школ, библиотекарей-библиографов и широкой читательской аудитории. Заранее выражаем благодарность всем читателям за высказанные замечания и предложения и просим направлять их по адресу Национальной Библиотеки им. М.Ф.Ахундова.

**Адрес:** AZ-1000, город Баку, ул. Хагани, 57.
**E-mail:**contact@anl.az

## Fikrət Əmirovun yaradıcılığı zəngin milli və bəşəri ideallardan qaynaqlanırdı

***Əsl sənət fitri istedad və zəhmət tələb edir. İstedad bir aləmdir, zəhmət bir aləm. Bu iki aləm bir-birinə qovuşanda milli sənət ümumbəşəri sənət səviyyəsinə yüksəlir*.**

**Fikrət Əmirov,**
*SSRİ və Azərbaycan Respublikasının Xalq artisti*

Fikrət Əmirov xalqın musiqi dilini, musiqi təfəkkürünü elə dəqiqliklə ifadə edirdi ki, bu, bəstəkarın öz üslubunun, musiqi dilinin elementlərinə çevrilirdi. Janrından asılı olmayaraq, Fikrət Əmirovun əsərlərində melodiyanın böyük rolunun ən mühüm üslub xüsusiyyəti lirikanın üstünlüyü ilə bağlıdır. Təsadüfi deyil ki, XX əsrin dahi bəstəkarı D.Şostakoviç yazmışdır: "Fikrət Əmirov musiqisinin canı melodiyadadır".

Fikrət Əmirov Azərbaycan bəstəkarlıq məktəbinin böyük nümayəndəsi, simfonik muğam janrının banisi, rəngarəng yaradıcılıq palitrasına malik qüdrətli sənətkar kimi mədəni sərvətlər xəzinəmizə misilsiz töhfələr bəxş etmişdir. Gücünü doğma torpaqdan alan, milli ənənələrə bağlı bəstəkar ecazkar xalq musiqisi və muğam ənənələrini müasir musiqi texnikası ilə uğurlu şəkildə birləşdirərək, neçə-neçə dəyərli opera, balet, simfoniya, mahnı, romans və kamera-instrumental əsər meydana gətirmişdir. Həmin əsərlər dünyanın bir sıra ölkələrində böyük konsert salonlarında məşhur orkestrlərin ifasında müvəffəqiyyətlə səslənmiş və müəllifinə böyük şöhrət qazandırmışdır. Yüz illiyinin UNESCO-nun 2022-2023-cü illər üzrə görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin yubileyləri proqramına daxil edilməsi Fikrət Əmirov





sənətinə beynəlxalq miqyasda yüksək qiymət verilməsinin bir təzahürüdür. Bəstəkarın vətənpərvərliyə səsləyən, daim mənəvi zənginlik aşılayan və bəşəri ideallar tərənnüm edən, nailiyyətlərlə zəngin irsi Azərbaycan musiqi sənəti salnaməsinin ən parlaq səhifələrindəndir.

Bəstəkarın yaradıcılığına nəzər salsaq görərik ki, əsərləri müxtəlif mövzuları özündə əks etdirir. Bu əsərlər həm janr, həm də xarakter etibarilə də rəngarəgdir. Bütün yaradıcılığında simfonizminin fərdi, özünəməxsus üslubu aydın şəkildə özünü göstərir. Əsərlərdəki epiklik, fəlsəfi düşüncə tərzi, dramatizm – gərginlik, işıqlı və təravətli həyat amalı bir-birini əvəzləyir və tamamlayır.

Bəstəkarın əsas ideyası milli üslubda professional musiqi əsərləri yaratmaq idi. İdeyasına sadiq qalan bəstəkar bu istiqamətdə yeni bir novator üslubu, dünya musiqisində heç bir analoqu olmayan, Şərq musiqisinin inkişafında əhəmiyyətli yer tutan simfonik muğam janrı yaratdı. Bu janra aid olan əsərlərin mahiyyəti ondan ibarətdir ki, muğamın tematizmi simfonik inkişafa qovuşur. Yəni muğamın modeli saxlanılır, musiqi daxilən yeniləşir, xanəndələr tərəfindən ifa olunan muğama yeni həyat verilir. Bəstəkarın bu janrda yazdığı "Şur" "Kürd-ovşarı" və daha sonra "Gülüstan Bayatı-Şiraz" simfonik muğamları onun yaradıcılığının xüsusi mərhələsidir. Burada bəstəkar iki klassik musiqi janrını muğamı və simfoniyanı üzvi surətdə qovuşdura bilib. Odur ki, simfonik muğam janrında muğama və simfoniyaya xas olan forma, quruluş, inkişaflı süjet xətti və s. cəhətlər öz əksini tapır. Məhz buna görə də bəstəkarın simfonik muğamları dünyanın müxtəlif ölkələrində səslənib, Niyazi, G.Rojdestvenski, Stokovski, Abendrot və başqa məşhur dirijorlar bu əsərlərin interpretatoru olublar. Bu gün də bəstəkarın simfonik muğamları dünya simfonizminin ən gözəl nümunələri kimi daim ifaçıların diqqətini cəlb edir. Bu əsərlər Azərbaycan mədəniyyətinin dünyada tanıdılmasında xüsusi əhəmiyyət kəsb edir. Onun tərəfindən təməli qoyulan bu janrı sonrakı bəstəkar nəsli əzmlə davam etdirərək sim-

fonik muğamlar yaratmışdı. Onlardan Niyazinin “Rast”, Süleyman Ələsgərovun “Bayatı-Şiraz”, Tofiq Bakıxanovun “Hümayun”, “Nəva”, “Rahab” “Dügah”, “Şahnaz”... simfonik muğamlarının adlarını xüsusilə çəkə bilərik.

Fikrət Əmirovun yaradıcılığından danışarkən, təbii ki, onun səhnə əsərlərini qeyd etməyə bilmərik. Xüsusilə “Sevil” operasını. Böyük Azərbaycan dramaturqu Cəfər Cabbarlının eyniadlı dramı əsasında yazılmış “Sevil” operası Fikrət Əmirov tərəfindən üç dəfə redaktə olunmuş və səhnələşdirilmişdir. Son illərdə Azərbaycan Dövlət Opera və Balet Teatrı bu əsərə müraciət edərək, onu yeni quruluşda tamaşaya qoymuşdur. Opera əsasında, həmçinin kinofilm də çəkilmişdir. Əsərdəki melodiyalar bir çox xüsusiyyətlərinə – improvizasiya üslubuna, quruluşuna, formasına, inkişaf üsullarına görə muğamla bağlıdır. Bütün hallarda bəstəkar həm xalq mahnı və rəqslərinin, həm də muğamların zəngin və rəngarəng intonasiyalarını böyük məharətlə təcəssüm etdirir.

Fikrət Əmirovun yaradıcılığında və eləcə də Azərbaycan musiqisində mərhələ təşkil edən “Sevil” operasından başqa bəstəkar daha bir neçə səhnə əsəri yaratmışdır. Bunlar onun yaradıcılığının ilkin dövrünə aid olan “Ürəkçalanlar” və “Gözün aydın” musiqili komediyaları, “Nəsimi dastanı”, “Min bir gecə”, “Nizami” baletləridir. Bəstəkarın yaradıcılıq irsində kamera-instrumental əsərləri xüsusi yer tutur. Bu əsərlərə fortepiano üçün və fortepiano ilə digər alətlər üçün yazdığı əsərlər daxildir. Bəstəkarın üslubunun səciyyəvi xüsusiyyətləri – obrazların əlvanlığı, lirikliyi, mahnıvarilik burada da aydın şəkildə diqqəti cəlb edir. Fikrət Əmirov müəyyən dövrlərdə yazdığı kiçik fortepiano pyeslərini sonrakı illərdə silsilə şəklində nəşr etdirib.

Bundan əlavə, bəstəkarın vokal musiqisini xüsusilə qeyd etmək istərdim. Çünki bəstəkar öz yaradıcılığında vokal janra geniş yer vermiş və digər janrlarda da onun xüsusiyyətlərindən istifadə etmişdir. Bəstəkarın 1977-ci ildə “İşıq” nəşriyyatında çap





etdirdiyi fortepiano və səs üçün 20 mahnıdan ibarət məcmuəsinə bu mahnılar daxil edilmişdir: “Azərbaycan elləri”, “Reyhan”, “Gülür ellər”, “Mən səni araram”, “Göygöl”, “Sevdiyim yarım mənim”, “Neyləmişəm”, “Aslanın mahnısı”, “Toy mahnısı”, “Üzümçü”, “Baharımsan”, “Saqinin mahnısı”, “Gülərəm gülsən”, “Gülüm”, “Pambıqçı qızlar”, “Kor ərəbin mahnısı”, “Mavi nəğmə”, “Aman ey yar”, “Layla” və “Gecə keçdi”.

Daha sonra onun “Minbir gecə”, “Nəsimi dastanı”, “Nizami” baletləri, “Nizami” simfoniyası, “Azərbaycan kapriççiosu”, skripka və fortepiano üçün “Muğam-poema”sı, süitaları, instrumental konsertləri, mahnı və romansları, dram tamaşalarına və kinofilmlərə yazdığı musiqi Azərbayçanın mədəni irsinin qiymətli inciləridir. Bu əsərlər Azərbaycan musiqisinin qızıl fondunda layiqli yer tutur.

Fikrət Əmirovun əsərləri Niyazi, Stokovski, Münş, Abendrot, Svetlanov, Rojdestvenski, Raxlin kimi görkəmli dirijorların ifasında dünyanın ən böyük konsert salonlarında səsləndirilmişdir. Onun əsərlərinə xas olan humanistlik, fəlsəfi dərinlik, parlaq obrazlılıq, bədii kamillik dinləyicini valeh etməyə bilmir.

Əlbəttə, Fikrət Əmirov yaradıcılığı haqqında danışmaq, fikir söyləmək böyük şərəfdir. Onu deyə bilərəm ki, ensiklopedik biliyə malik olan musiqiçi-alim Fikrət Əmirov təkcə bəstəkar kimi yox, həm də musiqi tariximizin görkəmli tədqiqatçısı, peşəkar pedaqoq və ictimai-siyasi xadim kimi zəngin irs qoymuşdur. Azərbaycan mədəni irsinin qiymətli incisi sayılan əsərləri həm milli həm də, dünya mədəniyyət xəzinəsinə böyük töhfələr vermişdir. Milli musiqimizin inkişafında və bütün dünyada tanınmasında misilsiz xidmətləri olan bu böyük sənətkarın xatirəsi xalqımızın yaddaşında daim yaşayır və yaşayacaqdır.

**Siyavuş Kərimi,**
*Xalq artisti, professor*

## Fikrət Əmirovun
## həyat və yaradıcılığının əsas tarixləri

***Fikrət Məşədi Cəmil oğlu Əmirov*** 1922-ci il noyabr ayının 22-də Gəncə şəhərində məşhur tarzən və xanəndə Məşədi Cəmil Əmirovun ailəsində anadan olmuşdur.

**1928** – Gəncə şəhərində M.Qorki adına (hal-hazırda İsmət Qayıbov adına) 1 saylı orta məktəbdə oxumuşdur;
– Üzeyir Hacıbəylinin təşəbbüsü ilə Gəncədə yaradılan 1 nömrəli Musiqi məktəbinin (texnikumunun) tar sinfinə getmişdir.

**1936** – Gəncədə keçirilən uşaq yaradıcılığı musiqi olimpiadasının (bacısı Yaxşı xanımla birlikdə) qalibi olmuşdur. Seçim üçün Bakıdan gələn bəstəkar Üzeyir Hacıbəyli onları şəxsən təbrik etmişdir;
– Uşaq yaradıcılığı musiqi olimpiadasının Dövlət Opera və Balet Teatrında keçirilən yekun konsertində iştirak etmək üçün Bakıya gələrək olimpiadanın qalibi seçilmişdir. Mükafatı ona Azərbaycan SSR KP MK-nın birinci katibi Mir Cəfər Bağırov təqdim etmişdir.

**1938** – Gəncə şəhərində M.Qorki adına 1 saylı orta məktəbi və musiqi məktəbinin tar sinfini əla qiymətlərlə bitirmişdir;
– Xalq artisti Bülbülün məsləhəti ilə Bakıda Üzeyir Hacıbəyli ilə görüşmüşdür. Üzeyir bəy onun istedadını yoxlamış və konservatoriyaya daxil olmasını məsləhət görmüşdür.





**1939** – Azərbaycan Dövlət Konservatoriyasının hazırlıq şöbəsinə daxil olmuşdur;
– İlk əsəri olan “Fortepiano üçün pyes”i yazmışdır;
– Əsər ilk dəfə Azərbaycan Dövlət Konservatoriyasında keçirilən bəstəkarlıq bölməsinin tələbələrinin əsərlərindən ibarət konsertdə ifa olunmuşdur;
– “Klarnet, violonçel və fortepiano üçün trio” orkestr əsərini yazmışdır;
– M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında (indiki M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyası) əsərlərindən ibarət konsert keçirilmişdir.

**1940** – Azərbaycan Dövlət Konservatoriyasında professor B.Zeydmanın bəstəkarlıq sinfinə qəbul edilmişdir.

**1941** – İlk peşəkar əsəri – “Fortepiano üçün variasiyalar”ı yazmışdır;
– Rus şairi M.Y.Lermontovun şair Məmməd Rahim tərəfindən tərcümə edilmiş şeirinə səs və fortepiano üçün ilk “Ulduz” adlı romansını yazmışdır;
– Dahi Azərbaycan şairi Nizami Gəncəvinin anadan olmasının 800 illiyi münasibətilə ilk irihəcmli əsərini – “Nizami” simfonik poemasını yazmışdır;
– Üzeyir Hacıbəylinin tövsiyəsi ilə Səməd Vurğunun inqilabçı X.Səfərəliyevin həyatına həsr edilmiş “Xanlar” pyesinə musiqi yazmışdır. Tamaşanın premyerası Bakıda Rus Dram Teatrının səhnəsində keçirilmişdir;
– Böyük Vətən müharibəsinin başlanması ilə əlaqədar Sovet Ordusu saralarında xidmət etmişdir;
– Sovet Ordusu sıralarında rabitəçilik kursunda təhsil almaq üçün 3 aylıq Tbilisiyə göndərilmişdir. Kursu bitirdikdən sonra qoşun qruplarının tərki-

bində Rostovdan keçərək Voronej istiqamətində ön cəbhəyə yollanmışdır.

**1942** – Böyük Vətən müharibəsində ordu sıralarında döyüşmüş, səhhəti ilə əlaqədar Bryansk şəhərində hospitalda müalicə olunmuş və ordudan tərxis olunaraq Gəncəyə qayıtmışdır.

**1942-1943** – Üzeyir Hacıbəylinin tövsiyəsi ilə Gəncə Filarmoniyasının direktoru və bədii rəhbəri təyin edilmişdir;
– Gəncə Dram Teatrında rejissor Mehdi Məmmədovla birlikdə Cəfər Cabbarlının “Od gəlini” və Mehdi Hüseynin “Nizami” pyeslərini tamaşaya qoymuşlar.

**1943** – Bakıya qayıdaraq Azərbaycan Dövlət Konservatoriyasında yarımçıq qalmış təhsilini davam etdirmişdir;
– Cəbhə dostu və məktəb yoldaşı Məmməd İsrafilzadəyə həsr etdiyi “Böyük Vətən müharibəsi qəhrəmanlarının xatirəsinə simfonik poema”nı yazmışdır;
– M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında maestro Niyazinin rəhbərlik etdiyi simfonik orkestrin ifasında “Nizami” simfonik poemasının premyerası olmuşdur.

**1944** – Tbilisidə keçirilən Cənubi Qafqaz Respublikalarının Musiqi Dekadasında “Böyük Vətən müharibəsi qəhrəmanlarının xatirəsinə” adlı simfonik poemanın premyerası olmuşdur;
– Nizami Gəncəvinin sözlərinə “Gülüm” romansını bəstələmişdir;
– Üzeyir Hacıbəylinin tövsiyəsi ilə Bakıda Musiqili Komediya Teatrının açılışı şərəfinə M.S.Ordubadinin librettosu əsasında “Ürəkçalanlar” operettasını yazmışdır.





**1945** – Böyük Vətən müharibəsində qazanılan qələbənin şərəfinə Zülfüqar Hacıbəyli ilə birgə Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestri üçün “Cəngi” uvertürasını bəstələmişdir;
– Skripka və fortepiano üçün “İkili konsert” əsərini yazmışdır.

**1946** – M.Əlizadənin “Gözün aydın” (“Şad xəbər”) tamaşasına musiqi yazmışdır;
– Leninqradda (indiki Sankt-Peterburq) keçirilən “Gənc bəstəkarların II Ümumittifaq Baxış”ına “Böyük Vətən müharibəsi qəhrəmanlarının xatirəsinə” adlı poema-rekviyemi daxil edilmişdir;
–“Romantik sonata”, “Skripka, fortepiano və orkestr üçün ikili konsert” əsərlərini bəstələmişdir.

**1947** – M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının bədii rəhbəri olmuşdur.
– Bəstəkar A.Babayevlə birlikdə “Azərbaycan xalq çalğı alətləri orkestri ilə fortepiano üçün konsert”i yazmışdır;
– Moskvada SSRİ Bəstəkarlar İttifaqı İdarə Heyətinin plenumunda “Azərbaycan xalq çalğı alətləri orkestri ilə fortepiano üçün konsert”in premyerası təşkil olunmuşdur;
– Nizami Gəncəvinin xatirəsinə həsr etdiyi “Simli orkestr üçün simfoniya”sını yaratmışdır. Simfoniyanın premyerası Moskvada və Bakıda şairin anadan olmasının 800 illiyinə həsr edilmiş yubiley mərasimində keçirilmişdir;
– Fortepiano üçün “Variasiyalar”ın yeni (ikinci) redaksiyasını işləmişdir.

**1948** – Üzeyir Hacıbəylinin təşəbbüsü ilə Dövlət Filarmoniyasında Azərbaycan Dövlət Xor Kapellasını yaratmışdır;
– Azərbaycan Dövlət Filarmoniyasında M.Kononenkonun (Türkmənistan) rəhbərliyi altında Azərbaycan Dövlət Xor Kapellasının ilk konsertində bəstəkarın xor üçün ilk əsəri "A-kapella" – Rəsul Rzanın sözlərinə yazdığı "Vətən haqqında mahnı" səslənmişdir;
– Azərbaycan Dövlət Konservatoriyasını bitirmişdir;
– Diplom işi kimi İ.Hidayətzadənin librettosu əsasında "Ulduz" adlı birpərdəli operasını yazmışdır;
– "Şur" və "Kürd ovşarı" simfonik muğamlarını yaratmışdır;
– Avqust ayının 8-də Bakıda, Azərbaycan Dövlət Filarmoniyasında maestro Niyazinin dirijorluğu ilə Azərbaycan Dövlət Simfonik orkestrinin ifasında "Şur" və "Kürd ovşarı" simfonik muğamlarının premyerası olmuşdur;
– Skripka, violonçel və iki fortepiano unisonu üçün "Üzeyir Hacıbəyliyə ithaf" əsərini yazmışdır;
– Fortepiano ilə violonçel və ya alt üçün "Asəf Zeynallının xatirəsinə" elegiya əsərini bəstələmişdir.

**1949** –SSRİ Nazirlər Sovetinin "1948-ci ildə ədəbiyyat və incəsənət sahəsində görkəmli əsərlərə görə Stalin mükafatlarının verilməsi haqqında" qərarı ilə "Şur" və "Kürd ovşarı" simfonik muğamları mükafata layiq görülmüşdür;
– Aprel ayının 18-də Azərbaycan Bəstəkarlar İttifaqının təşkilatçılığı ilə M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında yaradıcılıq gecəsi keçirilmişdir;
– Moskva Dövlət Flarmoniyasının Böyük zalında maestro Niyazinin dirijorluğu ilə SSRİ Dövlət





Simfonik orkestrinin ifasında "Şur" və "Kürd ovşarı" simfonik muğamlarının premyerası baş tutmuşdur;
– L.Ginzburqun dirijorluğu ilə M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında "Orkestr ilə skripka və fortepiano üçün ikili konsert"i Azərbaycan Dövlət Simfonik orkestnin ifasında böyük uğurla dinlənilmişdir;
– Rus şairi A.S.Puşkinin anadan olmasının 150 illik yubileyi münasibətilə şairin sözlərinə (Abbas Səhhətin tərcüməsində) simfonik orkestrin müşayiətilə tenor və bariton üçün "Qış yolu" vokal poemasını yazmışdır;
– M.S.Ordubadinin sözlərinə "Ağlasan ağlaram, gülərəm gülsən" mahnısını bəstələmişdir.

**1950** – Xalq şairi Səməd Vurğuna həsr etdiyi dörd hissədən ibarət "Azərbaycan" simfonik süitasını yazmışdır;
– Moskva Konservatoriyasının Kiçik zalında Zeynal Cabbarzadənin sözlərinə səs və fortepiano üçün "Quşlar", "Qatar", "Keçi" və "Yaz gəldi" adlı 4 uşaq mahnısının premyerası olmuşdur;
– Bakıda İmran Qasımovun Rus Dram Teatrının səhnəsində tamaşaya qoyulan "Xəzərdə şəfəq" pyesinə musiqi bəstələmişdir;
– Moskvada Rəşid Behbudovun ifasında "Ermitaj" Estrada Teatrının səhnəsində "İki sahil haqqında mahnı"sı (sözləri rus şairi N.Dorizinindir) səslənmişdir;
– Moskvanın "Dövlət Musiqi Nəşriyyatı"nda "Şur" sinfonik muğamının partiturası çap edilmişdir;
– Fransada və Belçikada əsərlərindən ibarət konsertlər keçirilmişdir.

**1951** – Xalq şairi Süleyman Rüstəmin sözlərinə fortepiano ilə səs üçün "Koreyalı partizanın andı" adlı simfonik poemasını yazmışdır;
– Moskvanın "Dövlət Musiqi Nəşriyyatı"nda "Kürd ovşarı" simfonik muğamının partiturası nəşr edilmişdir.

**1952** – Sofiyada dirijor V.Spirovun rəhbərliyi ilə Bolqarıstan Filarmoniyasının simfonik orkestrində, Buxarestdə isə dirijor L.Profetonun rəhbərliyi altında Rumıniya Dövlət Simfonik orkestrinin ifasında "Şur" simfonik muğamı səslənmişdir;
– Çinin Şanxay şəhərində böyük uğurla keçən sovet incəsənət ustalarının konsertində "Azərbaycan" süitsı ifa edilmişdir;
– Fortepiano ilə klarnet üçün "Rəqs" və şair Teymur Elçinin sözlərinə "Məktəbli mahnısı"nı yazmışdır.

**1953** – Azərbaycanın ilk lirik-psixoloji operasını – dramaturq Cəfər Cabbarlının "Sevil" pyesinin motivləri əsasında eyniadlı əsərini yazmışdır;
– Dekabrın 25-də (ictimai baxış 8 oktyabrda) M.F.Axundov adına Opera və Balet Teatrında "Sevil" operasının premyerası keçirilmişdir;
– SSRİ Bəstəkarlar İttifaqının yaradıcı nümayəndə heyətinin tərkibində Albaniyada səfərdə olmuşdur;
– Sofiyada dirijor V.Spirovun rəhbərliyi altında Bolqarıstan Filarmoniyasının simfonik orkestri tərəfindən "Kürd ovşarı" simfonik muğamı səslənmişdir;
– Nəfəs alətlərinin seksteti üçün "Pyeslər" yazmışdır;
– Bolqarıstanda bolqar və türk dillərində səhnəyə qoyulan "Gözün aydın" ("Şad xəbər") operettası böyük uğur qazanmışdır;
– Fortepiano və qoboy üçün "Adajio" və Azərbaycan xalq mövzularında fortepiano üçün iki pyes yazmışdır.





**1954** – Cəfər Cabbarlının "1905-ci ildə", Səməd Vurğunun "Vaqif" pyeslərinə musiqi bəstələmişdir;
– Fortepiano üçün 6 uşaq pyesi, 12 miniatür yazmışdır;
– ABŞ-da qastrolda olarkən Almaniyanın dirijor Q.Abendrotun rəhbərlik etdiyi Leypsiq simfonik orkestri "Kürd ovşarı" simfonik muğamını dəfələrlə ifa etmişdir;
– ABŞ-da "Kürd ovşarı" simfonik muğamı qrammofon valına yazılmış və böyük tirajla buraxılmışdır;
– Fortepiano ilə klarnet üçün "Lirik mahnı" əsərini bəstələmişdir;
– SSRİ Bəstəkarlar İttifaqının yaradıcı nümayəndə heyətinin tərkibində Suriyada qastrol səfərində olmuşdur.

**1955** – Azərbaycan SSR Ali Sovetinin deputatı seçilmişdir;
– "Alban mövzusunda süita" əsərinə görə (E.Nəzirova ilə birlikdə) Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 30 aprel tarixli fərmanı ilə Azərbaycan SSR-in "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür;
– Fortepiano üçün "On iki miniatür" əsərini yazmışdır;
– Cəfər Cabbarlının eyniadlı pyesinin motivləri əsasında bəstələdiyi "Sevil" operasının yeni (ikinci) redaksiyasını işləmişdir;
– Xalq şairi Səməd Vurğunun Rus Dram Teatrının səhnəsində tamaşaya qoyulmuş "Vaqif" pyesinə musiqi bəstələmişdir.

**1956** – Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun" musiqili komediyası əsasında Bakı Kinostudiyasında çəkilmiş eyniadlı kinofilmin musiqi redaksiyasını həyata keçirmiş, kinofilm üçün orkestrləşdirmişdir;

– Hüseyn Cavidin Azərbaycan Dövlət Dram Teatrında tamaşaya qoyulan "Şeyx Sənan" dramına musiqi bəstələmişdir;
– Maestro Niyazinin dirijorluğu ilə Azərbaycan Dövlət Simfonik Orkestri Bolqarıstanda qastrol səfəri zamanı "Şur" və "Kürd ovşarı" simfonik muğamlarını müvəffəqiyyətlə ifa etmişdir;
– İki fortepiano üçün "Alban xalq mövzuları üzrə süita" (E.Nəzirova ilə birlikdə) əsərinin premyerası E.Perevertaylo və İ.Plyamin ifasında səslənmişdir;
– "Sevil" operası Bakıda Azərbaycan Bəstəkarlar İttifaqının I qurultayında uğurla nümayiş olunmuşdur;
– "Alban xalq mövzuları üzrə süita" (E.Nəzirova ilə birlikdə) əsərinin notları Bakıda "Azmusnəşr"də çapdan çıxmış, Albaniya Əmək Partiyası MK-nın birinci katibi Ənvər Hocaya göndərilmişdir;
– Bəstəkar Səid Rüstəmov və Tofiq Quliyevlə birlikdə "Azərbaycan xalq mahnıları" məcmuəsinin birinci cildini hazırlamış, məcmuə "Azmusnəşr"də çap edilmişdir.

**1956-1959** – M.F.Axundov adına Opera və Balet Teatrının direktoru işləmişdir.

**1957** – Ərəb mövzusunda "Fortepiano ilə orkestr üçün konsert" (E.Nəzirova ilə birlikdə) yazmışdır. Əsərin premyerası Bakıda Azərbaycan Musiqi Dekadasında keçirilmişdir.
– Moskvada Ümumittifaq radiosunun Böyük Simfonik Orkestrinin ifasında dirijor N.Raxlinin rəhbərliyi ilə ərəb mövzusunda "Fortepiano ilə orkestr üçün konsert" səslənmişdir. Fortepiano partiyasını müəlliflərdən biri olan bəstəkar Elmira Nəzirova ifa etmişdir;





– M.F.Axundov adına Opera və Balet Teatrı Gəncə şəhərinə qastrollarını "Sevil" operası ilə başlamışdır;
– "Gözün aydın" ("Şad xəbər") operettasının yeni redaksiyasını işləmişdir;
– Mehdi Hüseynin faciə janrında yazdığı "Cavanşir" pyesinə musiqi bəstələmişdir. Tamaşa Moskvada keçirilən SSRİ Dram Teatrlarının festivalında 1-ci dərəcəli diploma layiq görülmüşdür.

**1958** – "M.F.Axundov adına Lenin ordenli Azərbaycan Dövlət Opera və Balet Teatrının işçilərinə Azərbaycan SSR Fəxri adların verilməsi haqqında" Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 25 aprel tarixli fərmanı ilə Azərbaycan SSR-nin "Xalq artisti" fəxri adına layiq görülmüşdür;
– Azərbaycan Bəstəkarlar İttifaqının katibi seçilmişdir;
– Bəstəkar Səid Rüstəmov və Tofiq Quliyevlə birlikdə "Azərbaycan xalq mahnıları" məcmuəsinin ikinci cildini hazırlamışdır. Məcmuə "Azərbaycan musiqi nəşriyyatı"nda çap edilmişdir;
– SSRİ Mədəniyyət Nazirliyinin nümayəndə heyətinin tərkibində Misirdə səfərdə olmuşdur;
– M.S.Ordubadinin librettosu əsasında yazdığı "Ürəkçalanlar" operettasının yeni redaksiyasını yazmışdır;
– Polşada bəstəkarın ərəb mövzusunda yazdığı "Fortepiano ilə orkestr üçün konsert"in premyerası baş tutmuşdur.

**1959** – SSRİ Ali Soveti Rəyasət Heyətinin "Azərbaycan SSR incəsənəti və ədəbiyyatı işçilərinin SSRİ orden və medalları ilə təltif edilməsi haqqında" 9 iyun tarixli fərmanı ilə "Lenin ordeni" ilə təltif edilmişdir;
– Bəstəkarın ərəb mövzusunda yazdığı "Fortepiano

ilə orkestr üçün konsert"i Riqada E.Tonsun rəhbərliyi ilə Latviya simfonik orkestrinin ifasında səslənmişdir;
– Nyu York Filarmoniyasının "Karneqi-Hollunda" dirijor L.Stokovskinin rəhbərliyi ilə Nyu York Filarmoniya Orkestri tərəfindən "Şur" və "Kürd ovşarı" simfonik muğamları müvəffəqiyyətlə ifa edilmişdir;
– Moskvada keçirilən Azərbaycan Ədəbiyyatı və İncəsənəti Dekadasında Moskvanın Böyük Teatrında "Sevil" operası yeni (üçüncü) redaksiyada nümayiş olunmuşdur;
– ABŞ hökumətinin və Amerika Bəstəkarlar, Müəlliflər və Naşirlər Assosiasiyasının dəvəti ilə SSRİ Bəstəkarlar İttifaqının yaradıcı qrupunun tərkibində Amerikada səfərdə olmuşdur;
– "Kürd ovşarı" simfonik muğamını ABŞ-ın Hyuston və Texas ştatlarında Amerikanın görkəmli dirijoru Leopold Stokovskinin rəhbərliyi ilə Hyuston simfonik orkestri ifa etmişdir;
– ABŞ-da "Kürd ovşarı" simfonik muğamının iki qrammofon valı buraxılmışdır.

**1960** – ABŞ-ın Nyu York və Filadelfiya şəhərlərində L.Stokovskinin dirijorluğu ilə "Robin Hodd Dell" orkestrinin ifasında "Azərbaycan" simfonik süitası səslənmişdir;
– "Sevil" operası Moskvanın P.İ.Çaykovski adına konsert zalında Ümumittifaq Radiosu və Televiziyasının simfonik orkestri, xoru və solistləri tərəfindən rus dilində ifa olunmuşdur;
– Ü.Hacıbəyliyə ithaf etdiyi "Poema" əsəri kamera orkestri üçün yeni redaktədə işlənilmişdir;
– SSRİ Bəstəkarlar İttifaqının yaradıcı nümayəndə heyətinin tərkibində Çexoslovakiyada "Praqa baharı" festivalında iştirak etmişdir;





– Bakıda "Sevil" operasının 100-cü tamaşası göstərilmişdir;
– "Nizaminin xatirəsinə" simli simfoniyasının ikinci (yeni) redaksiyasını işləmişdir;
– "Kürd ovşarı" simfonik muğamını ABŞ dirijoru B.Germann Londonda qastrolda olduğu zaman özünün rəhbərliyi ilə London simfonik orkestri ifa etmişdir;
– Mehdi Hüseynin eyniadlı romanının motivləri əsasında rejissor Ağarza Quliyevin çəkdiyi "Səhər" filminə musiqi yazmışdır.

**1961** – Nyu Yorkda keçirilən Dövlət Musiqi Festivalında "Şur" simfonik muğamı səslənmişdir;
– "Azərbaycan kapriççiosu"nu yazmışdır.

**1962** – Azərbaycan Bəstəkarlarının 2-ci qurultayında "Azərbaycan kapriççiosu"nun premyerası keçirilmişdir;
– SSRİ Bəstəkarlar İttifaqının Moskvada keçirilən III qurultayında "Azərbaycan kapriççiosu" əsərinin premyerası belorusiyalı dirijor A.Stasevviçin rəhbərliyi ilə SSRİ Dövlət simfonik orkestrinin ifasında baş tutmuşdur;
– Mirzə İbrahimovun eyniadlı romanının motivləri əsasında rejissor Həbib İsmayılov tərəfindən çəkilmiş "Böyük dayaq" filminə musiqi bəstələmişdir;
– Berlin radiosunda bəstəkarın anadan olmasının 40 illiyi münasibətilə veriliş hazırlanmış və "Şur", "Kürd Ovşarı" simfonik muğamları səsləndirilmişdir;
– Cəfər Cabbarlının eyniadlı pyesinin motivləri əsasında yazdığı "Sevil" operasının sonuncu (dördüncü) redaksiyasını yazmışdır;
– Varşavada ərəb mövzusunda yazdığı "Fortepiano

ilə orkestr üçün konsert"i (bəstəkar Elmira Nəzirova ilə birlikdə) səsləndirilmişdir;
– "Gözün aydın" ("Şad xəbər") operettası Bolqarıstanın Kolarovqrad Musiqi Teatrında türk dilində tamaşaya qoyulmuşdur.

**1963** – Beş hissədən ibarət "Simfonik rəqslər" suitasını bəstələmişdir;
– Qahirə Opera Teatrında ərəb mövzusunda yazdığı "Fortepiano ilə orkestr üçün konsert"i səsləndirilmişdir;
– Bakıya həsr etdiyi simfonik orkestr üçün "Həyat səhifələri" əsərini yazmışdır.

**1964** – Qara Qarayev və Fikrət Əmirovun təşəbbüsü ilə Azərbaycan Dövlət Kamera Orkestri yaradılmışdır;
– Moskva Radiosu ilə Ümumittifaq Radio və Televiziyanın Böyük Simfonik Orkestrinin ifasında bəstəkarın "Həyat səhifələri" və "Simfonik rəqslər"i səsləndirilmişdir;
– "Nizaminin xatirəsinə" simli simfoniyasının sonuncu (üçüncü) redaksiyasını işləmişdir;
– "Üzeyir Hacıbəylinin xatirəsinə" əsərinin yeni (üçüncü) variantını hazırlamışdır;
– "Üzeyir Hacıbəylinin xatirəsinə" əsəri Nazim Rzayevin rəhbərliyi ilə Azərbaycan Kamera Orkestri tərəfindən ifa edilmişdir;
– Bakıda keçirilən Rus İncəsənəti Dekadasında "Nizaminin xatirəsinə" simli simfoniyası yeni redaksiyada dirijor Gennadi Rojdestvenskinin rəhbərliyi ilə Ümumittifaq Radio və Televiziyanın Böyük Simfonik Orkestrinin ifasında səsləndirilmişdir;
– "Şur" və "Kürd ovşarı" simfonik muğamlarını Tehranda "Rudaki-holl"da dirijoru Heşmet Səncərinin rəhbərliyi ilə Tehran simfonik orkestri ifa etmişdir;





– Azərbaycan SSRİ Xalq rəssamı Cəlal Qaryağdı tərəfindən büstü hazırlanmışdır.

**1965** – SSRİ Ali Soveti Rəyasət Heyətinin 2 mart tarixli fərmanı ilə Sovet incəsənətinin inkişafındakı böyük xidmətlərinə görə "SSRİ Xalq artisti" fəxri adına layiq görülmüşdür;
– Bakıda keçirilən 3-cü "Cənubi Qafqaz baharı" musiqi festivalında "Azərbaycan kapriççiosu" və "Simfonik rəqslər" adlı əsərləri ifa edilmişdir;
– SSRİ Bəstəkarlar İttifaqının nümayəndə heyətinin tərkibində Suriyada qastrol səfərində olmuşdur;
– Leninqrad (Sank-Peterburq) Filarmoniyasının Böyük Zalında Leninqrad simfonik orkestrinin ifasında "Azərbaycan kapriççiosu" əsəri N.Raxlinin dirijorluğu ilə ifa edilmişdir;
– SSRİ Bəstəkarlar İttifaqının nümayəndə heyətinin tərkibində Böyük Britaniyada qastrol səfərində olmuşdur. Londonda, Krallığın "Royal Festival Hollu"nda "Nizaminin xatirəsinə" simli simfoniyası səslənmişdir;
– Moskvada P.Çaykovski adına Konsert Zalında dirijor Niyazinin rəhbərliyi altında Ümumittifaq Radio Komitəsi orkestrinin ifasında "Sevil" operası rus dilində, yeni redaksiyada təqdim edilmişdir;
– Ü.Hacıbəylinin "Arşın mal alan" musiqili komediyası əsasında rejissor Tofiq Tağızadənin ekranlaşdırdığı kinofilmin musiqi redaktoru olmuşdur;
– Kamera orkestri üçün "Asəf Zeynallının xatirəsinə" elegiyasının yeni versiyasını işləmişdir.

**1966** – Rejissor R.Əsgərovun və A.Voyazosun çəkdiyi "Yaşamaq gözəl şeydir, qardaşım" bədii filminə musiqi bəstələmişdir;
– "Arşın mal alan" musiqili komediyasının film

üçün yeni redaksiyasını işləyib hazırlamışdır;
– Fortepiano üçün "Prelüd"in yeni redaksiyasını işləyib hazırlamışdır;
– Litvanın Vilnüs və Kaunas şəhərlərində müəllif konserti keçirilmişdir.

**1967** – SSRİ Ali Soveti Rəyasət Heyətinin 27 oktyabr tarixli Fərmanı ilə "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif edilmişdir;
– Respublika Lenin komsomolu mükafatı laureatı adına layiq görülmüşdür;
– Türk hökumətinin dəvəti ilə Türkiyədə yaradıcılıq ezamiyyətində olmuşdur;
– "Sevil" operasının yeni (beşinci) redaksiyasını işləmişdir;
– Polşanın Lodz şəhərində "Kürd ovşarı" simfonik muğamını filarmoniyanın simfonik orkestri iranlı dirijor H.Səncərinin rəhbərliyi ilə ifa etmişdir;
– Moskvada keçirilən Azərbaycan Mədəniyyəti və İncəsənəti Günlərində "Nizaminin xatirəsinə" simli simfoniyası səsləndirilmişdir.
– Xalq rəssamı Tahir Salahov tərəfindən "Fikrət Əmirovun portreti" işlənmişdir. Hal-hazırda əsər Azərbaycan Milli İncəsənət Muzeyində sərgilənir.

**1968** – Azərbaycan poeziyasının klassik şairi Molla Pənah Vaqifin yubileyi münasibətilə kamera orkestri üçün "Vaqif" poemasını yazmışdır;
– Niyazinin rəhbərliyi ilə "Azərbaycan kapriççiosu" əsəri Türkiyədə səsləndirilmişdir;
– Gürcü şairi Şota Rustavelinin anadan olmasının 800 illiyinə "Gürcüstan – Rustavelli" xor və simfonik orkestr üçün kantatasını bəstələmişdir.





**1969** – İstanbulda maestro Niyazinin dirijorluğu ilə "Azərbaycan kapriççiosu" Türkiyə Dövlət Simfonik Orkestrinin ifasında səsləndirilmişdir.

**1970** – "Sevil" operası "Azərbaycanfilm" kinostudiyasında rejissor V.Qorikker tərəfindən ekranlaşdırılmışdır;
– Solistlər və böyük simfonik orkestr üçün altı hissəli "Portretlər" simfonik əsərini bəstələmişdir;
– Almaniya hökumətinin dəvəti ilə Azərbaycan incəsənət xadimlərinin nümayəndə heyətinin tərkibində dahi alman bəstəkarı L.V.Bethovenin 220 illiyinə həsr edilmiş yubiley tədbirlərində iştirak etmişdir;
– Bəstəkarın təşəbbüsü ilə Gəncədə Musiqi Evi açılmışdır;
– Berlində dirijor G.Baumanın interpretasiyasında milli nəfəsli orkestri "Azərbaycan kapriççiosu"nu ifa etmiş və əsər orada lentə alınmışdır;
– İranın Şiraz şəhərində səfərdə olmuş və Şərqin dahi şairləri Hafiz və Sədinin dəfn edildiyi yerləri ziyarət etmişdir;
– İran səfərindən sonra Hafiz və Sədinin xatirəsinə həsr etdiyi "Gülüstan Bayatı-Şiraz" simfonik muğamını bəstələmişdir;
– Tehranda "Kürd ovşarı" simfonik muğamını dirijor Heşmet Səncərinin rəhbərliyi ilə "Rudaki-holl"-da Tehran simfonik orkestri ifa etmişdir.
– Nəcəf bəy Vəzirovun "Müsibəti Fəxrəddin" dramına musiqi bəstələmişdir.

**1971** – SSRİ Ali Soveti Rəyasət Heyətinin 2 iyul tarixli Fərmanı ilə ikinci dəfə "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif edilmişdir;
– Azərbaycan SSR Ali Soveti xalq maarifi, elm və mədəniyyət Komissiyasının üzvü seçilmişdir;

– Üçüncü simfonik muğamı olan "Gülüstan Bayatı-Şiraz" əsərinin premyerası Moskvada 7-ci Musiqi Konqresində keçirilmişdir;
– "Gülüstan Bayatı-Şiraz" simfonik muğamının partiturasını və orkestr səslərini hədiyyə olaraq dirijor Heşmet Səncərinin rəhbərlik etdiyi Tehran simfonik orkestrinə təqdim etmişdir.

**1972** – "Nizaminin xatirəsinə" simli simfoniyasını Tehranda "Rudaki-holl"da dirijoru Heşmet Səncərinin rəhbərliyi ilə Tehran simfonik orkestri ifa etmişdir;
– İraq Mədəniyyət Nazirliyinin Musiqi departamentinin dəvəti ilə bu ölkədə yaradıcılıq ezamiyyətində olmuşdur;
– Fortepiano üçün "Variasiyalar"in sonuncu (üçüncü) redaksiyasını yaratmışdır;
**2021** – В рамках 41-й Генеральной конференции ЮНЕСКО, состоявшейся в Париже с 9 по 24 ноября 2021 года, 100-летие всемирно известного азербайджанского композитора Фикрета Амирова (1922-1984) было включено в «Программу юбилеев ЮНЕСКО на 2022-2023 годы» и утверждено празднование этого юбилея на уровне ЮНЕСКО в международном масштабе;

– На международном фестивале в Латвии прозвучала музыка композитора.

**2022** – 15 марта 2022 года Президент Азербайджанской Республики Ильхам Алиев подписал Распоряжение о «Праздновании 100-летнего юбилея Фикрета Амирова»;

– В честь 100-летия композитора 12-23 ноября Министерство Культуры Азербайджанской Республики провело музыкальный фестиваль;

– По случаю 100-летия организован юбилейный концерт в ЮНЕСКО;

– В честь 100-летия выдающегося композитора в Азербайджанской Национальной Библиотеке им. М.Ф.Ахундова была подготовлена электронно-информационная база «Фикрет Амиров»;

– В Азербайджанской Национальной Библиотеке им. М.Ф.Ахундова в серии «Выдающиеся личности Азербайджана» была издана книга «Фикрет Амиров. Библиография»;

– 4-5 мая в Бакинской Музыкальной Академии имени У.Гаджибейли состоялась Республиканская научно-практическая конференция «Композитор и время» к 100-летию со дня рождения Ф.Амирова;

– Состоялась концертная программа, посвященная композитору в «Моцарт-Холле» в Вене;

– Организован концерт, посвященный «Году





Шуши» и 100-летию со дня рождения Фикрета Амирова в Бразилии;

– Балет «Тысяча и одна ночь» поставлен в Болгарии, Казани, Санкт-Петербурге;

– Прошел концерт под названием «Мост дружбы» в знаменитом «Карнеги-холле» в Нью-Йорке при организации Национального общества музыки и глобальной культуры США;

– Концерт по случаю 100-летия состоялся в зале Cemal Reshit Ray Hall в Стамбуле;

– Министерством культуры Азербайджана во Дворце Гейдара Алиева проведено торжественное юбилейное мероприятие, посвященное 100-летию со дня рождения Фикрета Амирова;

– «Избранные произведения для скрипки и фортепиано» Фикрета Амирова из серии «Музыкальные сокровища» были опубликованы Национальной библиотекой Азербайджана имени М.Ф.Ахундова (руководитель проекта Керим Таиров; сост. Марат Ибрагимов; ред. Сардар Фараджев).

– «Шесть пьес для гобоя и фортепиано» Фикрета Амирова из серии «Музыкальные сокровища» были опубликованы Национальной библиотекой Азербайджана имени М.Ф.Ахундова (руководитель проекта Керим Таиров; сост. Марат Ибрагимов; ред. Сардар Фараджев).

## Fikrət Əmirov Azərbaycan musiqisi, muğam sənəti, görkəmli incəsənət xadimləri haqqında

*Mən həmişə arzulamışam ki, **Azərbaycan musiqisi** Yer kürəsinin hər bir nöqtəsində səslənsin. Çünki xalqın musiqisi ilə onun özü haqqında fikir yaratmaq olar. Əgər mən bütün həyatımın bu arzusunu qismən də olsa həyata keçirə bilsəm, özümü xoşbəxt sanardım.*

*Məni bəstəkar edən **Azərbaycan tarıdır**. Azərbaycan musiqi alətlərinin gözü tardır. Tar öz ahənginə, tembrinə, diapazonuna, gücünə görə təkcə bir alət deyil, sanki bir orkestri əvəz edir.*

***Nizamini** çox sevirəm. Dərin hikmət sahibinin demək olar ki, bütün əsərlərini oxumuşam. Onun şeirləri insan qəlbini riqqətə gətirən musiqiyə bənzəyir...*

***Üzeyir Hacıbəyli** sənətinin Azərbaycan bəstəkarlarına nə verdiyini tam ifadə etmək üçün mən yalnız belə deyə bilərəm: "Biz hamımız Üzeyir məktəbindən çıxmışıq".*

***"Koroğlu"** dünya musiqi mədəniyyətinin nailiyyətlərini özündə təcəssüm etdirən, yüksək sənət tələblərinə cavab verən ölməz bir əsərdir. Azərbaycan opera sənətinin zirvəsidir!*

***Bülbül** Azərbaycan mili musiqi xəzinəsinin incilərini göz*





*bəbəyi kimi qoruyur, bu xalq incilərinə öz məlahətli ifası ilə daha dərin məna və gözəllik verir.*

*...**Bülbülün** böyüklüyü, ona olan dərin xalq məhəbbətinin sirri nədədir? Bülbülü müğənnilərimizin bülbülü edən nədir? Bu bir möcüzədirmi? Əlbəttə, istedad nə qədər qeyri adi olsa da, yox! Bülbülün qüdrəti onun sənətinin sırf xəlqiliyində, xalq həyatı ilə bağlı olmasında, eyni zamanda bir sənətkar kimi "dəhşətli əmək" (Lev Tolstoy) yolu ilə getməsindədir. Bülbül nə oxuyurdusa ürəkdən oxuyurdu. Bülbül sənəti müxtəlif görüşlü, müxtəlif zövqlü dinləyiciləri ona görə əsir edə bilirdi ki, o, hansı səviyyədə isə dayanmır, yaxud hansı səviyyəyə isə enmirdi. Bəlkə bir-birinə nisbətən aşağı-yuxarı səviyyədə duran zövqləri daha böyük bir yüksəkliyə qaldırır və orada birləşdirirdi. Beləliklə də, hamının istəklisi olurdu. O, sənəti müqəddəs bilir və bu işə ürəyinin bütün hərarətini verirdi.*

***Qarayev** sənəti – əzəmətli Azərbaycan musiqi məbədinin ən etibarlı dayaqlarından biridir və bu musiqinin dünya şöhrəti qazanmasında onun rolu böyükdür... İstedad üstəgəl əmək – bizim ictimai həyatımızda, mədəniyyətimizdə Qarayev sənətinin mahiyyəti və pafosu bax bundadır...*

***...**Qara Qarayevin yaratdığı musiqi təkcə bərəkətli Azərbaycan torpağının, onun orijinal mədəniyyətinin inciləri deyil, bütün dünya musiqisinin bəzəyidir. Q.Qarayev bir də ona görə ölməzdir ki, tərbiyə etdiyi bəstəkarların böyük bir dəstəsini qoyub getmişdir. Həmin bəstəkarlar onun işini davam etdirəcəklər.*

*Məşhur bir əfsanədə Anteyin qeyri-adi qüdrətini onun ayaqlarının torpağa dayanmasında, torpaqla bağlılığında görürlər. **Üzeyir Hacıbəyli** özü də bu müqayisəni sevirdi və bəstəkar gücünü-qüvvətini onun xalq həyatına, xalq sənətinə bağlılığında görürdü. Biz böyük Üzeyir yaradıcılığından bu Antey qüdrətinin sirlərini hələ çox öyrənməliyik.*

*Mənsub olduğum "**Üzeyir məktəbi**"nin bir nümayəndəsi kimi fəxr edirəm ki, ilk muğam operası "Leyli və Məcnun"un yaranmasından düz 40 il sonra – 1948-ci ildən musiqidə yeni bir janrı – simfonik muğam janrını yaratmaq səadəti mənə nəsib olmuşdur.*

***Qlinka** rus xalq incəsənətinin tükənməz xəzinəsindən şüurlu surətdə istifadə etmiş olan birinci rus bəstəkarlarındandır. O, öz musiqi obrazlarının valehedici sadəliyini və əzəmətini xalqının yaradıcılıq hünərindən ilham alaraq yaratmışdır. Qlinka yeni, saf rus milli klassik üslubunun yaradıcısıdır və rus musiqi sənəti klassiklərinin müəllimidir.*

*Mənim yaradıcılıq xəmirim **xalq musiqisi** ilə yoğurulub. O tükənməz ilham mənbəyi, sənətkara qüvvət verən dirilik çeşməsidir.*

***Üzeyir Hacıbəyli** sənətinin Azərbaycan bəstəkarlarına nə verdiyini tam ifadə etmək üçün mən yalnızs belə deyə bilərəm: "Biz hamımız Üzeyir məktəbindən çıxmışıq.*

***Əsl sənət** fitri istedad və zəhmət tələb edir. İstedad bir aləmdir, zəhmət bir aləm. Bu iki aləm bir-birinə qovuşanda, milli sənət ümumbəşəri sənət səviyyəsinə yüksəlir.*

***Aşıq musiqisi** də aşıq şeirimiz, xalq mahnılarımız, bayatılarımız, muğamlarımız kimi Azərbaycan xalqının çox sevdiyi, onun ürəyinə yatan gözəl sənət növlərindəndir.*

*Azərbaycan xalqı dünya poeziyasına çox böyük söz ustaları, nəhəng şairlər verib. Onların hərəsi bir millətin mədəniyyətinin*





*fəxri ola bilər. Poeziyasının min ildən artıq tarixi olan bir xalqın şairi olmaq böyük hünərdir, əsl sənətkar hünəri. Rəsul müəllim **(Rəsul Rza),** Siz Azərbaycanın belə qüdrətli söz ustasısınız. Sizin orjinal poeziyanız mərdlik və müdriklik poeziyasıdır. Bu poeziyada dövrün gənclik nəbzi vurur. Təzadları, həyəcanları, ağrıları, bəlaları əks olunur. Bu poeziya Füzuli ənənəli, Nəsimi ruhlu, Rəsul Rza nəfəsli genişmiqyaslı, kökünə bağlı müasir Azərbaycan poeziyasıdır. Buna görə, Sizə minnətdarıq. Buna görə, gələcək nəsillər Sizi daha uca tutacaqlar. Sağ olun, Rəsul müəllim!*

***Nəsibə Zeynalova** sözün həqiqi mənasında fitri istedada malik sənətkardır. Nəsibə həmişə öz temperamentli, ağıllı oyunu, istedadı hesabına səhnə sənətinin təsir imkanlarını zənginləşdirmişdir. O, sözün əsl mənasında realist aktyordur.*

***Bəhram Mansurovun** yaradıcılıq yolu aydın və maraqlıdır. O, öz ilhamını sənətdən alır və gözəl istedadını dinləyicilərə səxavətlə bəxş edir, həyatının əsl mənasını musiqidə görür. Bəhram və tar bir-birindən ayrılmazdır... Bəhram sarı simlə həqiqətən möcüzələr yaradır.*

*Sənətkar olmaq üçün sənətin aşiqi olmaq, vurğunu olmaq gərəkdir. **Səməd Vurğun** yaradıcılara nümunə olan əsl sənət vurğunu idi.*

*Məndən soruşsalar ki, **Maksim Qorki** kim idi? Deyərəm: bəstəkar. O, mahnı da yazıb, simfoniya da. Onun hekayə və şeirləri ən gözəl mahnı, roman və pyesləri isə ən gözəl simfoniyadır. Qorki musiqisi dəniz kimi fırtınalıdır, dağlar kimi əzəmətlidir, göylər kimi genişdir, nağıllar kimi əfsanəvidir, insanın özü kimi müqəddəs və həyatidir.*

***Vaqif** (Molla Pənah Vaqif) əsl xalq şairi olmuşdur. Xalq şairi isə xalqın ən sədaqətli oğlu olmaq deməkdir. Vaqif xalqın ruhunu, dilini, gözəlliyini dərindən-dərinə öyrəndikdən sonra hər şairin girişə bilmədiyi Şərq poeziyası göylərində Azərbaycan şeirinin realizm bayrağını ucadan-ucaya qaldırmış, bununla da ədəbiyyatımızda yeni bir yol açmış şairdir. Onun ürəyi xalqın ürəyi ilə bir vurmuşdur – demək azdır, çünki Vaqifin ürəyi bu gün də vurur. Onun ürəyi şeirlərindədir. Bu şeirlər ölməzdir!*

***Cabbarlı** (Cəfər Cabbarlı) əsərlərində xalq yaradıcılığından gələn fəlsəfi dərinlik, Mirzə Fətəlidən gələn ifşaedicilik, Vaqifdən gələn şirinlik, Sabirdən, Mirzə Cəlildən gələn "acılıq" bir-birinə qarışmışdır. Buna görə də onun hər bir əsəri insanı həm düşündürür, həm güldürür, həm də ağladır.*

***Tahir** (Tahir Salahov) sözün əsl mənasında ustaddır. Biz bu sözü az-az işlədirik, tək-tək adamlar haqqında deyirik. Məncə, Tahir Salahov tam mənası ilə bu adı daşımağa layiq sənətkardır.*

***İstedad** – nadir hadisədir, onu ardıcıl və ehtiyatla qorumaq lazımdır.*

***Xalq** üçün yazıb-yaratmaq, onunla birlikdə nəfəs alıb işləmək sənətkar üçün ən böyük səadətdir.*

***Muğamın** musiqi təfəkkürü xüsusi dilə malik olub, dünyanın fəlsəfi dərki və insanın bu dünyaya gəlişinin məqsədinə aydınlıq gətirməkdən ibarətdir. Bu cəhətlərə görə muğamın tarixi yaradıcıları şair – filosoflar olmuşlar. Bir sözlə, muğam filosofun, mütəfəkkirin musiqili düşüncələri, mülahizələridir.*





***Azərbaycan muğamları** – qədim şərq musiqisinin ən gözəl abidəsidir. Xalq muğamlarda özünün fəlsəfi təfəkkürünü, müdrikliyini və gözəlliyə cəhdini dahiyanə şəkildə ifadə etmişdir. Muğamın əsasında ciddi dürüst ziddiyyətlərin, arxitektonik zənginliyi, musiqi inkişafının xüsusi məntiqi və bununla yanaşı ifadə anlamının improvizasiyalılığı durur. Bu mənada, mənə elə gəlir ki, muğam Avropa simfonizminin yüksək nümunələri ilə müqayisədə davam gətirir. Muğamın bəzi kamilliyi onu orta əsr ərəb aləminin ölməz heykəltaraşlıq abidələri, Şərq poeziyasının Firdovsi, Nizami, Sədi, Hafiz, Xəyyam, Füzuli və digər korifeyləri ilə müqayisə etməyə imkan verir.*

***Simfonizm,** onun hüdudsuz musiqi dərəcələri, rəngarəng palitrası özündə bütün musiqi janrlarını ümumiləşdirir. Musiqinin fəlsəfiliyi də məhz elə bundadır. Simfonik janra məhəbbətim barədə danışarkən, mən, həmçinin, opera və balet də nəzərdə tuturam. Əgər simfonizm musiqili təfəkkür dialektikasının zirvəsidirsə, bu zaman musiqili – səhnə janrında musiqi fantaziyasının dərinliyi və genişliyi açılaraq, zəkanın bütün bilik dərəcələrinin qavranılması ilə genişlənir. Hər şeyi nəzərə alaraq, bütün bu mürəkkəbliklərə baxmayaraq, bu sintetik janr səhnədə baş verən hadisələrə, insan səsi, obrazı, dramatik toqquşmalara xoreoqrafik plastikliyə, mimika və digər cəhətlərə görə daha anlaşıqlı olub, tamaşaçılar tərəfindən yaxşı qavranılır. Bir sözlə, musiqili - səhnə mədəniyyəti musiqinin dramatrgiya ilə yalnız ayrılmaz bütövlüyü zamanı mümkündür.*

*Mən bu fikirdəyəm ki, **bəstəkarın vəzifəsi** təkcə musiqi bəstələməklə bitmir. Fikri həmişə səslərlə deyil, bəzən də sözlərlə ifadə etməyə daxili ehtiyac duyursan. "Söz qəlbdə qalmaz" deyiblər. Bu qeydləri sənət müəllimlərim, sənət dostlarım, eləcə də xarici həmkarlarım, səyahətlərim haqqında qəlbimdə "qala bilməyən", dinləyicilərlə, oxucularla bölüşmək istədiyim fikirlərdir.*

***Musiqi** sevgi ilə yaşayır – o gözəl və zərif əsərdir və yalnız pak, sadiq sevgi onu qoruya və saxlaya bilər. Musiqinin öyənilməsi təqliddən başlayır, lakin onun həqiqi qavranılması böyük sevgi yaranmadan mümkünsüzdür. O sevgini öz qəlbində hiss etməli, sonra isə yaratdığın səs dünyasına köçürməlisən. Görünür, həqiqi incəsənət belə yaranır!*

***Musiqi folklorumuzu** toplamaq, nəşr etdirmək, onlardakı sadəliyin, güclü emosiyanın sirlərini öyrənmək böyüklü-kicikli hamımızin əsas vəzifəsi olmalıdır.*

*Zahirən elə görünür ki, **milli ənənələr** professional musiqi mədəniyyəti ilə ziddiyyət təşkil edir. Lakin bu ziddiyyətdə qeyri-adi harmoniya və ahəngdarlıq mövcuddur. Yalnız bu iki mədəniyyəti yaxşı bilmək və onları qovuşdurmağı bacarmaq lazımdır.*

*Opera üzərində işləyərkən, mən bir tərəfdən böyük rus klassiki **Pyotr İliç Çaykovskinin** yaradıcılığından, digər tərəfdən isə Azərbaycan opera sənətinin banisi **Üzeyir Hacıbəyovun** yaradıcılığından bəhrələnmişəm. Ü.Hacıbəyovun Azərbaycan xalq musiqisi ilə bağlı operaları, P.İ.Çaykovskinin opera yaradıcılığında qəlbləri riqqətə gətirən insan xarakterlərinin dərindən açılması mənimçün örnək olub. Mən öz əsərimdə məhz bu iki cəhətin qarşılaşdırılmasına çalışmışam.*

*Mən həmişə öz yaradıcılığımda doğma xalqıma, onun zəngin və tükənməz **musiqi mədəniyyətinə** arxalanmışam.*

*Şərq xalqlarının bu böyük neməti **(muğam)** simfonik libas*





*geyinərsə, öz gözəlliyi, öz incəliyi, ahəngi, təravəti, ritmik xüsusiyyətləri ilə dünya xalqlarının mənəvi xəzinəsinə daimi yol tapa bilər.*

***Ərtoğrol** mənim ən yaxın, ən əziz dostum, yoldaşım idi. Ömrüm boyu çox insanlarla qarşılaşmışam. Ərtoğrol həyatda qarşıma çıxan ən təmiz, ən nəcib, ən gözəl insanlardan idi. Onun bütün varlığı sənətlə-musiqiylə, ədəbiyyatla yoğrulmuşdu. Həyatının yalnız bircə məqsədi və qayəsi vardı... sənət, yaradıcılıq... Biz çox yaxın dost idik – hər yerdə birgə olardıq – konservatoriyada, konsertlərdə, tamaşalarda... Mənə elə gəlir ki, bu dostluğumuz, bu mehribanlığımız hər ikimizin əziz müəllimi olan Üzeyir Hacıbəylinin diqqətindən yayınmamışdı və o, bu dostluğa, bu ülfətə, etibara sevinirdi. Onun erkən ölümü musiqimiz üçün böyük itki idi, şəxsən mənimçünsə ən yaxın, ən munis bir dostumun, sirdaşımın itkisi idi...*

*Mənim təsəvvürümdə “**Bayatı-Şiraz”** muğamının libası Sədiyə və Hafizə cox yaraşır. Mən onların musiqi gülüstanını yarat - dım. Bu muğam gözəllik muğamıdır, burada romantik aləm, bahar ətri duyulur.*

## Görkəmli şəxsiyyətlər Fikrət Əmirov haqqında

Fikrət Əmirov nadir istedada malik idi – bu anadangəlmə istedad, Tanrı payı idi... İrsiyyət də özünü bildirmişdi – onun atası Məşədi Cəmil görkəmli musiqiçi, bütün Şərqdə məşhur olan tarzən, müğənni, bəstəkar idi...

Fikrət Əmirovun musiqisində Azərbaycan xalq düşüncəsi dünya musiqi mədəniyyəti ənənələri ilə qəribə şəkildə uzlaşır – bu, təkrarolunmaz intonasiyalarda, kəskin ritmlərdə, özünəməxsus harmoniyalarda Şərqin parlaq koloritini daşıyan səmərəli sintezdir. Onun musiqi aləminə gəlişi özünün istedadı, özünəməxsus xətti, orjinal üslubu və milli yaradıcılığın – muğamın parlaq təzahürü ilə hamını heyrətə gətirdi.

Bu sənətkarın musiqisində əks etdirilən ümumbəşəri ideyalar ayrı-ayrı materiklərdə də başadüşüləndir və bütün xalqlara yaxındır, baxmayaraq ki, onlar xüsusi, şəxsi dildə, sırf milli formada deyilmiş və Azərbaycanın ətri ilə bürünmüşdür. Bu musiqi öz dərin kökləri ilə Azərbaycanın milli zəmininə və xalq yaradıcılığına gedib çıxır. O, doğrudan da Azərbaycanın incəsənətində, mədəniyyətində və musiqisində böyük iz qoyub getmişdir.

Fikrət Əmirovun musiqisi yüksək humanizm və gözəllik idealları ilə zəngindir, o insanları dərindən mütəəssir edir və xeyrin şər üzərində qələbəsini təsdiq edir.

Fikrət Əmirov – böyük bəstəkardır, Şərqin layiqli oğludur!

"Sevil" operası incəsənətin çox əhəmiyyətli əsəridir və Azərbaycanın musiqi və opera sənətinə böyük töhfədir. Azərbaycanın musiqi həyatında Fikrət Əmirovun "Şur", "Kürd ovşarı" və "Gülüstan Bayatı-Şiraz" simfonik muğamları çox görkəmli hadisə olmuşdur.

Fikrət Əmirovun "Azərbaycan kapriççiosu"nu dinləyərkən mənim gözlərimin önündə sanki Azərbaycanın gözəl təbiəti





canlanır – onun dağları, meşələri, şəlalələri və yaşıl düzləri. Mən, həmçinin, Bakıda, Tbilisidə, Moskvada "Min bir gecə" baletinin premyerasında da iştirak etmişəm və rənglərin əlvan gözəlliyi və əsl Şərq şadyanalığını bu cür parlaq əks etdirən müəllifin gurultulu uğuruna sevinmişəm.

Fikrət Əmirovun yüksək sənətkarlıqla bəstələdiyi əsərlər dünyanın məşhur dirijorlarının repertuarına daxil olmuş, bir çox xarici ölkələrin konsert salonlarında səslənərək Azərbaycan musiqi sənətinə böyük şöhrət gətirmişdir.

**Heydər Əliyev,**
*Azərbaycan xalqının ümummilli lideri*

Azərbaycan bəstəkarlıq məktəbinin böyük nümayəndəsi, simfonik muğam janrının banisi Fikrət Əmirov rəngarəng yaradıcılıq palitrasına malik qüdrətli sənətkar kimi mədəni sərvətlər xəzinəmizə misilsiz töhfələr bəxş etmişdir.

Gücünü doğma torpaqdan alan, milli zəminə bağlı bəstəkar ecazkar xalq musiqisi və muğam ənənələrini müasir musiqi texnikası ilə uğurlu şəkildə birləşdirərək, neçə-neçə dəyərli opera, balet, simfoniya, mahnı, romans və kamera-instrumental əsər meydana gətirmişdir. Fikrət Əmirovun üslubuna xas lirik-romantik boyaların bütün əlvanlığı ilə öz əksini tapdığı bu müxtəlif janrlı sənət nümunələrində milli ruh, fəlsəfi-psixoloji dərinlik və melodik gözəllik hakimdir. Həmin əsərlər dünyanın bir sıra ölkələrindəki mötəbər konsert salonlarında məşhur orkestrlərin ifasında müvəffəqiyyətlə səslənmiş və müəllifinə geniş coğrafiyada şöhrət qazandırmışdır.

Azərbaycan musiqi sənəti tarixinə parlaq səhifələr yazmış Fikrət Əmirovun musiqinin ən müxtəlif janrlarını əhatə edən çoxsaylı əsərləri, o cümlədən opera, balet, simfoniya, mahnı və romansları xalqımızın mədəni sərvətlər xəzinəsinin qızıl fondun-

da xüsusi yer tutur. Böyük bəstəkar milli musiqimizin zəngin ənənələri ilə dünya musiqi mədəniyyətinin mühüm nailiyyətlərinin qovuşuğunda misilsiz sənət inciləri meydana gətirmişdir. Bəstəkarın dünyanın ən iri konsert salonlarında mötəbər orkestrlərin ifasında səsləndirilən simfonik muğamlarının Azərbaycan mədəniyyətinin tanıdılmasında müstəsna rolu vardır.

Fikrət Əmirovun vətənpərvərliyə səsləyən, daim mənəvi zənginlik aşılayan və bəşəri ideallar tərənnüm edən, nailiyyətlərlə zəngin irsi Azərbaycan musiqi sənəti salnaməsinin ən parlaq səhifələrindəndir.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*

Musiqili Komediya Teatrının açılışı müvəffəqiyyətli işdir, Fikrətin müvəffəqiyyətidir. Fikrətin müvəffəqiyyəti isə sevindiricidir.

**Üzeyir Hacıbəyli,**
*Azərbaycanın müasir peşəkar musiqi sənətinin banisi, akademik*

"Şur" və "Kürd ovşarı" simfonik muğamlarının ifası respublikamızın musiqi həyatında görkəmli hadisədir. Fikrət Əmirovun yaradıcılıq işinin müvəffəqiyyəti ondadır ki, o, xalq dühasının əsrlərlə yaratdığı bütün xüsusiyyətləri saxlamaqla bərabər, muğamlara yeni məzmun verə bilmişdir. Ölməz musiqi poemaları onun təfsirində yeni tərzdə səslənir. Əmirov öz vəzifəsini dərindən dərk edərək zəngin məzmunlu, xəlqi dilli, orijinal formalı simfonik əsərlər yaratmışdır.

...F.Əmirov böyük yaradıcılıq təşəbbüsü göstərərək, qədim muğama yeni məzmun vermiş, muğamı başqa xalqlar üçün anlaşıqlı etmişdir.





F.Əmirov xalq mahnı və rəqslərinə çox qayğı ilə yanaşır, o, demək olar ki, melodiyanı dəyişməz şəkildə saxlayır, lakin onu incə harmoniyalarla, rəngarəng orkestr boyaları ilə toxunmuş gözəl çərçivəyə salır, yəni folklor üçün genetik cəhətdən səciyyəvi olmayan elementlərdən istifadə edir.

Xalq musiqisinin əsaslarını dərindən bilmək, Fikrət Əmirov yaradıcılığını səciyyələndirir.

**Qara Qarayev,**
*Xalq artisti, akademik*

Fikrət Əmirov – əsl novatordur. Onun müasir dünya peşəkar musiqisinə töhfəsi prinsipial olaraq yeni janrın yaradılmasından: Şərqin və Qərbin musiqi ənənə və üslublarının sintezindən – simfonik muğamın və ya "Şərq simfonizm üslubundan" ibarətdir. Tamamilə aydındır ki, Fikrət Əmirovun yaradıcılığı Azərbaycan xalq folklorunun, Şərq xalqlarının musiqisinin, dünya peşəkar musiqi mədəniyyətinin güclü təsiri altında yaranmışdır.

Azərbaycan xalq musiqisinə yaxşı bələd olan Fikrət Əmirovun müvəffəqiyyəti çox böyükdür. "Sevil" operası müəllifin tükənməz xalq muğamlarımızın xəzinəsindən aldığı və məharətlə istifadə etdiyi cazibəli melodiyalarla zəngindir. Xalq musiqisi opera üçün çox zəngin musiqi materialı olmuşdur.

**Səməd Vurgun,**
*Xalq şairi, akademik*

Fikrət, sən indi öz böyük uğurları ilə dünya dinləyicilərini heyran eləyən Azərbaycan musiqisinin klassikisən.

**Rəsul Rza,**
*Xalq şairi*

Mən bulaq gördüm. Saf və şəffaf bir bulaq. Əmirovun mahnıları saf və təravətlidir. Mən çinar gördüm. Başı göyləri yaran, kökləri torpaqda dayanan bir çinar. Bu gün Əmirovun sənət çinarının göylərə ucalması onun doğma torpağa bağlılığıdır.

**Nəbi Xəzri,**
*Xalq şairi*

Fikrət Əmirov doğma torpaqdan start götürmüş, zirvədən-zirvəyə ucalmış Azərbaycanının bəstəkarlıq şöhrətini qitədən-qitəyə yaymışdır.

Bir bəstəkar kimi Fikrət Əmirov Üzeyir Hacıbəyov məktəbinin övladı və davamçısıdır. Onun bir çox mahnıları dillər əzbəridir, daima ürəklərdə səslənir, adamı yaşamağa, yaratmağa ruhlandırır, yorğunluğu, ətaləti canından çıxarır, qəlblərdə dərin, müqəddəs həyəcanlar, hisslər fırtınası qaldırır, onun "Sevil"i, "Min bir gecə"si musiqi sərvətimizin unudulmaz əsərləridir.

**Mirzə İbrahimov,**
*Xalq yazıçısı*

Sən bizim Azərbaycan torpağının klassik sənətkarı, sevimli nəğməkarı kimi şöhrət tapmısan. Qoy sənin bu şöhrətin daha da bol olsun.

**Hüseyn Abbaszadə,**
*Xalq yazıçısı*

Opera teatrının kollektivi böyük həyəcan və yaradıcılıq hissi ilə "Sevil" operası üzərində işə başladı. Bu, Cəfər Cabbarlının pyesi üçün inandırıcı musiqi həllini tapmış bəstəkarın böyük yaradıcılıq uğurudur. O, yüksək peşəkarlıq səviyyəli opera yaratmışdır. Operanın dəyərli cəhəti ondadır ki, bəstəkar qəhrəmanların şəxsi taleyini deyil, məhz yüksək vətəndaşlıq pafosu ilə sosial dramını ön plana çəkmişdir.

**Əfrasiyab Bədəlbəyli,**
*Xalq artisti*





Bəstəkarın abidəsini yenidən hazırlasaydım, elə notlar əlavə edərdim ki, dahiliyi daha qabarıq görünə bilsin. Ümumiyyətlə, dahi şəxsiyyətlərin heykəllərini hazırlayanda hər zaman eyni hissi – minnətdarlıq duyğusu yaşayıram. Fikrət Əmirovu həmişə dahi bəstəkar hesab etmişəm. Onun özünəməxsus xüsusiyyətləri mənə ildən-ilə daha da geniş aspektdə agah olur. Düşünürəm ki, o elə sağlığında dünyada qəbul edilən bəstəkar idi. Amma bu gün onun əsərlərinə dünyada tələbat var, bənzərsiz musiqi irsinin dəyəri getdikcə daha da artır. Mən bəstəkarın muğam-simfoniyalarını dinləyəndə masştabın genişliyini duyuram. Qəbirüstü abidəsini hazırlayanda oğlu Cəmil mənə bəzi məqamları demişdi. Dediklərində həqiqət var idi. Fikrət Əmirov özlüyündə monumental insan idi. Yəni qəbirüstü abidəni hazırlayanda da eyni düşüncə ilə yanaşırdım işə. Onunla yaxın tanış olmasam da, bir-iki dəfə mənim emalatxanamda müəyyən səbəblərdən olmuşdu...

İş ondadır ki, mən o vaxt heykəli o cür təsəvvür etmişdim. İndi isə daha başqa tərəfdən baxıram. Biz heykəlləri, abidələri peşəkarlar üçün deyil, xalq üçün yaradırıq. O dövrdə mən Fikrət Əmirovun musiqiçi kimi lirikliyini, dəqiqliyini, aristokrat görünüşünü çatdırmaq istəmişdim. Bu gün isə onu daha qabarıq, dinamik və çılğın şəkildə təqdim etmək istəyərdim. Heykəl bəstəkarın vəfatından bir il sonra ərsəyə gəldi.

**Ömər Eldarov,**
*Xalq rəssamı, akademik*

Fikrət Əmirovun zəngin, çoxşaxəli musiqi yaradıcılığı ilə - "Sevil" operası, "Şur", "Kürd ovşarı", "Gülüstan Bayatı-Şiraz" simfonik muğamları, "Nizami" simfoniyası, "Azərbaycan kapriççiosu", "Min bir gecə", "Nizami", "Nəsimi dastanı" baletləri instrumental konsertləri, vokal əsərləri musiqimizin zəngin musiqi irsi və inciləridir.

**Zemfira Səfərova,**
*Akademik, Əməkdar elm xadimi*

Xalq artisti F.Əmirovun əsərləri məndə həmişə güclü, parlaq təəssüratlar oyadır. Çünki onlar tarixi keçmişimizi, bu günümüzü,

insan əməllərinin vüsətini gerçəkliklə və bədii surətdə xəyalımızda canlandırır. Musiqi insan taleyilə dərindən maraqlanan, ictimai həyatda fəal iştirak edən bu coşqun, ehtiraslı insanın təbii təzahürüdür.

**Səttar Bəhlulzadə,**
*Xalq rəssamı*

Fikrət Əmirov Azərbaycan bəstəkarlıq məktəbinin böyük nümayəndəsi, simfonik muğam janrının banisi, rəngarəng yaradıcılıq palitrasına malik qüdrətli sənətkar kimi mədəni sərvətlər xəzinəmizə misilsiz töhfələr bəxş etmişdir. Gücünü doğma torpaqdan alan, milli ənənələrə bağlı bəstəkar ecazkar xalq musiqisi və muğam ənənələrini müasir musiqi texnikası ilə uğurlu şəkildə birləşdirərək, neçə-neçə dəyərli opera, balet, simfoniya, mahnı, romans və kamera-instrumental əsər meydana gətirmişdir. Həmin əsərlər dünyanın bir sıra ölkələrində böyük konsert salonlarında məşhur orkestrlərin ifasında müvəffəqiyyətlə səslənmiş və müəllifinə böyük şöhrət qazandırmışdır.

**Siyavuş Kərimi,**
*Xalq artisti, professor*

Musiqi Fikrət Əmirovdan ötrü həyat üçün zəruri olan "bir udum hava" olmuşdur – o, əsər üzərində işləyərkən, bu sehrli dünyanı içinə "çəkir" və "bələdçiyə" çevrilirdi. Bütün "digərlər" "o tayda" atılırdı və yalnız o – onu sonsuz dərəcədə cəlb edən musiqi qalırdı.

**Cəmil Əmirov,**
*Xalq artisti*

Fikrət müəllim mənə həmişə xalq musiqisindən bəhrələnməyi tövsiyə edirdi. O, deyirdi ki, əgər sən xalqın ruhuna uyğun musiqi yazmasan, sənin yazdığın heç kimə gərək deyil.

**Oqtay Rəcəbov,**
*pedaqoji elmlər doktoru, professor*





Gözəllik və ağıl, dərinlik və orijinallıq, məna və aydınlıq Fikrət Əmirov musiqisinin ruhunu, canını təşkil edən əsas keyfiyyətlərdəndir.

**Əlaga Kürçaylı,**
*Əməkdar incəsənət xadimi*

Fikrət Əmirovun komediyaya ("Gözün aydın") yazdığı musiqi parçaları məni valeh elədi. Bəstəkar hələ gənc olsa da, o, artıq püxtələşmiş sənətkardır. Öz orijinal üslubu, orijinal bəstəkarlıq texnikası vardır. Musiqi folklorumuza, dahi Üzeyir bəyin bəstəkarlıq məktəbinə bağlıdır. Mən Fikrətin simasında Azərbaycanın gələcək böyük bir bəstəkarını görürəm.

**Mikayıl Rəfili,**
*filologiya elmləri doktoru , professor*

Fikrətin musiqisi xalqımızın könül mahnıları kimi səslənir, onu düşündürür, həyəcanlandırır, sevindirir.

**Nurəddin Babayev**,
*Əməkdar incəsənət xadimi, professor*

Azərbaycan xalqı bütün Şərq aləmində ilk dramaturgiyanın, ilk teatrın, ilk operanın, ilk baletin əsasını qoymaq şərəfinə nail olmuşdur. Dünya musiqi ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilən ilk şərqli peşəkar dirijor doğma xalqımızın yetişdirməsidir. Bu sözləri yazarkən öncə Mirzə Fətəli, Üzeyir bəy, Əfrasiyab Bədəlbəyli, Niyazi nəzərdə tutulur. Və qürurla onu da bildirirəm ki, dünya klassik musiqi tarixində ilk simfonik muğamın müəllifi də azərbaycanlı sənətkardır – Fikrət Əmirovdur.

**Fazil Rəhmanzadə**,
*filologiya elmləri doktoru,*
*Əməkdar mədəniyyət işçisi*

Azərbaycan professional bəstəkarlıq məktəbinin korifeylərindən biri olan Fikrət Əmirov zəngin yaradıcılığı ilə musiqimizin inkişafında yeni mərhələ açmış, musiqimizi dünya miqyasında

tanıtmış, əsərlərilə dünya musiqi mədəniyyəti xəzinəsinə daxil olmuşdur.

F.Əmirovun əsərləri dərin köklərlə milli zəminə bağlıdır. Bəstəkar xalqın musiqi dilini, musiqi təfəkkürünü elə dərinliklə dərk edir ki, onlar bəstəkarın özünəməxsus dəst-xəttinin, musiqi dilinin xüsusiyyətlərinə çevrilir. Yəni xalq musiqisi F.Əmirovun öz fikir və hisslərini ifadə etmək üçün doğma dildir. Eyni zamanda, xalq musiqisinin qanunauyğunluqları F.Əmirovun yaradıcılığında inkişaf etdirilərək, dünya klassik musiqi ənənələri və müasir bəstəkarlıq texnikası ilə rövnəqlənmiş, cilalanmışdır. F.Əmirovun yaradıçılıq üslubu iki özəyin – Şərq və Qərb musiqi ənənələrinin qovuşmasından yaranmışdır.

Dünya xalqları tərəfindən tanınmış və dəyərləndirilmiş Fikrət Əmirov musiqisi tərcüməyə ehtiyacı olmayan bir dil kimi insanlar arasında ünsiyyət vasitəsinə çevriləcək, onların bir-birini daha yaxşı başa düşməsinə, xalqların yaxınlaşmasına, sülh və əmin-amanlığa rəvac verən qüvvə kimi daim yaşayacaq və səslənəcək.

**Cəmilə Həsənova-İsmayılova,**
*sənətşünaslıq elmləri doktoru, professor*

Bəstəkarın yaradıcılığında elə bir əsər yoxdur ki, kökü milliliyə bağlı olmasın.

**Səadət Təhmirazqızı,**
*Əməkdar mədəniyyət işçisi,*
*sənətşünaslıq üzrə fəlsəfə doktoru*

Fikrət Əmirovun əsərləri zəngin melodiyalarla səciyyəvidir. Melodiya onun əsərlərinin ürəyidir. Öz yaradıcılığında o, folklordan bol-bol istifadə edir. Fəqət bu istiqamətdə bəstəkar xalq musiqi xəzinəsindən inciləri mexaniki olaraq köçürmür, əksinə, onu daha da cilalayır, zənginləşdirir, bütün potensial imkanlarını





səfərbər edərək muğamın gözəgörünməz çalarlarını təzə, orijinal musiqi dilində təfsir edir.

Mən sizin "Azərbaycan" simfonik süitasının partiturasını öyrəndim... musiqinizə heyran oldum.

**Dmitri Şostakoviç,**
*SSRİ-nin xalq artisti, rus bəstəkarı*

Əziz Əmirov cənabları! Biz Hyustonda və Texasda sizin simfonik muğamlarınızı ifa edəndə orkestr də, dinləyicilər də heyran qalmışdılar. Verdiyiniz zövq üçün sizə minnətdarıq.

**Leopold Stokovski,**
*Amerika və ingilis dirijoru*

Biz hamımız Fikrət Əmirovun indicə dinlədiyimiz yeni muğamının təsiri altındayıq. Bu əsər onun ilk simfonik muğamlarındakı yaradıcılıq prinsiplərinin ardıcıl inkişafıdır. "Bayatı Şiraz"ın kompozisiyası görkəmli Azərbaycan bəstəkarının istedadının yeni yaradıcılıq hüdudlarını açır. Əmirov xalq musiqisindən ilhamlı əsərləri üçün mənbə kimi istifadə etməyi bacarır və öz əsərlərində xalq müdrikliyini yüksək peşəkarlıqla uyğunlaşdırır. "Bayatı Şiraz"da Şərq və Qərb musiqi mədəniyyətinin bir-birinə yaradıcı təsirini görən xarici musiqiçilər bəstəkarın yaradıcılığının məhz bu cəhətini yüksək qiymətləndirmişlər.

**Boris Yarustovski,**
*Rusiyanın Əməkdar incəsənət xadimi*

F.Əmirovun simfonik muğamları Şərqin geniş dinləyici kütləsini onun musiqi təfəkkürünə yaxın bir forma vasitəsilə simfonik musiqi mədəniyyətinə qovuşdurmuşdur.

Fikrət Əmirovun musiqisi böyük və şanlı yol, narahat axtarışlar, parlaq kəşflər yoludur, bəstəkar bu yol boyunca mütərəqqi

milli ənənələri yaşatmış və zənginləşdirmişdir...

**Tixon Xrennikov,**
*SSRİ Xalq artisti, rus bəstəkarı*

Bütün kollektivimizi bunca cuşə gətirən ikinci bir tamaşa yadıma gəlmir. Tbilisidə F.Əmirovun "Min bir gecə" baletinin ilk tamaşası mədəniyyətlərin əsl beynəlmiləl dostluq bayramına çevrildi. Əmirovun emosional zənginliyi ilə fərqlənən ehtiraslı musiqisi tamaşanın uğur qazanmasında mühüm rol oynadı.

**Zurab Ancaparidze**,
*SSRİ-nin Xalq artisti*

"Azərbaycan kapriççiosu" olduqca şux əsərdir, o, xalqın sevinc hisslərini ifadə edir, nikbin ruhu ilə, təravətli dili ilə dinləyicini məftun edir.

**Natan Raxlin,**
*SSRİ-nin Xalq artisti*

Əziz Əmirov cənabları! Sizi sevindirmək istəyirəm ki, Leopold Stokovski "Robin Qud Dell" orkestri ilə "Azərbaycan" simfonik süitasını çalmışdır. Əsər məharətlə ifa olunmuş və 31 min dinləyicinin əksəriyyəti heyranlığını bildirmiş, onu bu cür konsertlər silsiləsində ifa olunan müstəsna bir əsər kimi qiymətləndirmişdir.

**Teodor A.Sider,**
*Filadelfya (ABŞ) Kitabxanasının musiqi kuratoru*

Son dərəcə parlaq, həyat həqiqəti güclü və əsl xəlqi əsər olan "Nəsimi haqqında dastan" poemasının ifası İsveçin musiqi həyatında unudulmaz hadisəyə çevrilmiş, isveçli musiqisevərləri Azərbaycanın zəngin musiqi mədəniyyəti ilə bir daha yaxından tanış etmişdir. Əmirov musiqisinin Stokholmda belə hərarət və məhəbbətlə qarşılanması təminat verir ki, Azərbaycan musiqisi ilə bu ilk tanışlıq gələcəkdə də hökmən davam etdiriləcəkdir.

**Hans Nudmark,**
*İsveç Kral Musiqi Akademiyasının Prezidenti*





Uzun illərdir ki, müasir bəstəkarlar arasında çox sevdiyim Fikrət Əmirovun yaradıcılığını dərindən öyrənirəm. Onun "Şur" və "Kürd ovşarı" simfonik muğamları qəlbimi lərzəyə gətirmiş, Şərqin çox dərin və müdrik incəsənətini varlığıma hopdurmuşdur. Məhz Əmirovun sayəsində mən muğamı, Azərbaycan muğamını və xalq musiqisini öyrənməyə başlamışam.

**Erik Stal,**
*danimarkalı musiqişünas*

Mən Azərbaycan artistlərinin qonağı oldum. Fikrət Əmirovun "Sevil" operasının tamaşasına baxdım və ehtizaza gəldim. Mən xalqın yaratdığı incəsənəti ölməz sayıram. Azərbaycan incəsənəti isə xalqın incəsənətidir...

**Anna Zegers**,
*alman yazıçısı*

# I HİSSƏ

# FİKRƏT ƏMİROVUN ƏSƏRLƏRİ

## 1.1.Not əsərləri

### 1942

**1. Variasiyalar:** fortepiano ilə oxumaq üçün romans / Fikrət Əmirov; [red. B.İ.Zeydman]. – Bakı: Azmusnəşr, 1942. – 19 s.

### 1944

**2. Ulduz:** fortepiano ilə oxumaq üçün romans = Звезда: для голоса с фортепиано / Fikrət Əmirov; söz. M.Rahim; tərc. L.Zalcman; [red. B.İ.Zeydman]. – Bakı: Azmusnəşr, 1944. – 6 s. – Mətn paralel olaraq Azərbaycan və rus dillərindədir.

### 1945

**3. Gülüm:** fortepiano ilə oxumaq üçün / Fikrət Əmirov; söz. Nizami; tərc. C.Xəndan; rus dil. tərc. ed. Y.Fidler; [red. B.Zeydman]. – Bakı: Azmusnəşr, 1945. – 5 s. – Mətn paralel olaraq Azərbaycan və rus dillərindədir.

### 1946

**4. Gülərəm – gülsən:** fortepiano ilə oxumaq üçün / Fikrət Əmirov; söz. M.S.Ordubadi; tərc. Y.Fidler; red. B.İ.Zeydman. – Bakı: Azmusnəşr, 1946. – 7 s. – Mətn paralel olaraq Azərbaycan və rus dillərindədir.

·

### 1947

**5. Romantik sonata:** (fortepiano üçün) / Fikrət Əmirov; [red. B.Zeydman]. – Bakı: Azmusnəşr, 1947. – 30 s.





**6. Variasiyalar:** fortepiano üçün = Вариации: для фортепиано / Fikrət Əmirov; [red. B.Zeydman]. – Bakı: Azmusnəşr, 1947. – 21 s. – Mətn paralel olaraq Azərbaycan və rus dillərindədir.

### 1948

**7. İki prelüd:** fortepiano üçün = 2 прелюдии: для фортепиано / Fikrət Əmirov. – Bakı: Azmusnəşr, 1948. – 7 s. – Mətn paralel olaraq Azərbaycan və rus dillərindədir.

### 1949

**8. Asəf Zeynallıya xatirə:** [violonçel yaxud skripka ilə fortepiano üçün] / Fikrət Əmirov; skripka üçün düzəldəni M.Reytix; [red. B.Zeydman, İ.Turiç]. – Bakı: Azmusnəşr, 1949. – [4] s. – Mətn paralel olaraq Azərbaycan və rus dillərindədir.

**9. Qış yolu:** A.S.Puşkinin sözləri üzrə tenor və bariton ilə simfonik orkestr üçün poema: fortepiano ilə oxumaq üçün düzəldilmişdir / Fikrət Əmirov; tərc. Abbas Səhhət; red. B.Zeydman. – Bakı: Azmusnəşr, 1949. – 13 s.

**10. Uşaq pyesləri:** fortepiano üçün / Fikrət Əmirov; [red. B.Zeydman]. – Bakı: Azərbaycan Dövlət Musiqi Nəşriyyatı, 1949. – 3 s.

***İçindəkilər:*** Kiçik nağıl; Yaz nəğməsi.

### 1950

**11. Azərbaycan elləri**: fortepiano ilə oxumaq üçün / Fikrət Əmirov; söz. M.Dilbazi; [red. B.Zeydman]. – Bakı: Azmusnəşr, 1950. – 9 s. – Mətn paralel olaraq Azərbaycan və rus dillərindədir.

**12. Şur:** Azərbaycan muğamı: simfonik orkestr üçün = Шур: Азербайджанский мугам: для симфонического оркестра / Fikrət Əmirov; [red. N.Çaykin]. – Partitura. – Moskva : Leninqrad: Dövlət Musiqi Nəşriyatı, 1950. – 83, [1] s. – Mətn paralel olaraq Azərbaycan və rus dillərindədir.

**13.Uşaq nəğmələri:** fortepiano ilə oxumaq üçün / Fikrət Əmirov; söz. Z.Cabbarzadə; red. K.Səfərəliyeva. – Bakı: Azmusnəşr, 1950. – 17 s. – Mətn paralel olaraq Azərbaycan və rus dillərindədir.

***İçindəkilər***: Quşlar; Qatar; Quzum; Bahar gəlir.

**1951**

**14. Baharımsan:** ("Gözün aydın" musiqili komediyasından): Tar və fortepiano üçün köçürmə / Fikrət Əmirov. – Bakı: Azmusnəşr, 1951. – 5 s. – Mətn paralel olaraq Azərbaycan və rus dillərindədir.

**15. Kürdi-ovşarı**: Azərbaycan muğamı: Simfonik orkestr üçün / Fikrət Əmirov. – Partitura. – Moskva : Leninqrad: Qosmuzqiz, 1951. – 72 s. – Mətn paralel olaraq Azərbaycan və rus dillərindədir.

**1952**

**16. Aşıqsayağı:** fleyta (qoboy yaxud klarnet) ilə fortepiano üçün / Fikrət Əmirov; [red. M.Əhmədov]. – Bakı: Azmusnəşr, 1952. – 15 s. – Mətn paralel olaraq Azərbaycan və rus dillərindədir.

**17. Azərbaycan elləri:** fortepiano ilə oxumaq üçün / Fikrət Əmirov; söz. M.Dilbazi; tərc. A.Jarova; [red. M.Əhmədov]. – Bakı: Azmusnəşr, 1952. – 9 s. – Mətn paralel olaraq Azərbaycan və rus dillərindədir.

**18. Bulaq başında**: fleyta (qoboy yaxud klarnet) ilə fortepiano üçün = У родника: для флейты (гобоя или кларнета) с фортепиано / Fikrət Əmirov; [red. M.Əhmədov]. – Bakı: Azmusnəşr, 1952. – 5 s. – Mətn paralel olaraq Azərbaycan və rus dillərindədir.

**19. Məktəbli nəğməsi**: azyaşlı məktəblilər üçün: fortepiano ilə oxumaq üçün / Fikrət Əmirov; söz. Ə.Tələt; tərc. S.Nevedova; [red. M.Əhmədov]. – Bakı: Azmusnəşr, 1952. – 4, [1] s. – Mətn paralel olaraq Azərbaycan və rus dillərindədir.

**20. Rəqs**: qoboy (klarnet yaxud faqot) ilə fortepiano üçün / Fikrət Əmirov; [red. M.Əhmədov]. – Bakı: Azmusnəşr, 1952. – 3 s. – Mətn paralel olaraq Azərbaycan və rus dillərindədir.

**1953**

**21. Azərbaycan xalq mövzuları əsasında iki pyes**: fortepiano üçün / Fikrət Əmirov; [red. M.Əhmədov]. – Bakı: Azmusnəşr, 1953. – 5 s. – Mətn paralel olaraq Azərbaycan və rus dillərindədir.





**22. Xatirə:** skripka, violonçel və fortepiano üçün / Fikrət Əmirov; [red. M.Əhmədov]. – Bakı: Azmusnəşr, 1953. – 7 s. – Mətn paralel olaraq Azərbaycan və rus dillərindədir.

**23. Ulduz**: fortepiano ilə oxumaq üçün romans / Fikrət Əmirov; söz. M.Y.Lermontov; tərc. M.Rahim; [red. M.Əhmədov]. – Bakı: Azmusnəşr, 1953. – 7 s.

**1954**

**24. Adajio:** qoboy (klarnet yaxud faqot) ilə fortepiano üçün / Fikrət Əmirov; [red. M.Əhmədov]. – Bakı: Azmusnəşr, 1954. – 3 s.

**25. Lirik nəğmə**: klarnet (yaxud fleyta) ilə fortepiano üçün / Fikrət Əmirov; [red. M.Əhmədov]. – Bakı: Azərmusnəşr, 1954. – 3 s. – Mətn paralel olaraq Azərbaycan və rus dillərindədir.

**26. Sevdiyim yardır mənim:** fortepiano ilə oxumaq üçün = Любимый: для голоса с фортепиапо / Fikrət Əmirov; tərc. P.Pançenko; [red. M.Əhmədov]. – Bakı Azmusnəşr, 1954. – 7 s. – Mətn paralel olaraq Azərbaycan və rus dillərindədir.

***İçindəkilər***: Sevdiyim yardır mənim / söz. xalq; Reyhan; Mən səni araram / söz. T.Əyyubov; Azərbaycan elləri / söz. M.Dilbazi; Aslanın mahnısı / söz. N.Xəzri; Gülüm / söz. Nizami; Baharımsan / söz. S.Vurğun; Kor ərəbin mahnısı (H.Cavidin "Şeyx Sənan" dramasına yazılmış musiqidən); Laylay / söz. N.Xəzri; Gülərəm gülsən / söz. M.S.Ordubadi.

**1955**

**27. Gülüm**: Fortepiano ilə oxumaq üçün / Fikrət Əmirov; söz. Nizaminindir. – Bakı: Azmusnəşr, 1955. – 6 s.

**28. 12 miniatür:** fortepiano üçün / Fikrət Əmirov; [red. M.Əhmədov]. – Bakı: Azmusnəşr, 1955. – 22 s. – Mətn paralel olaraq Azərbaycan və rus dillərindədir.

***İçindəkilər:*** Ballada; Aşıqsayağı; Noktürn; Yumoreska; Lirik rəqs; Ovda; Laylay; Vals; Barkorola; Tokkato; Elegiya; Marş.

**29. "Sevil" operasından Balaşın mahnı və ariyaları:** fortepiano ilə oxumaq üçün = Песня и арии Балаша из оперы «Се-

вилъ»: для голоса с фортепиано / Fikrət Əmirov; söz. Ə.Tələt; tərc. P.Pançenko; [red. B.Məmmədova]. – Bakı: Azərnəşr, 1955. – 28 s. – Mətn paralel olaraq Azərbaycan və rus dilindədir.

***İçindəkilər:*** Balaşın mahnısı ("Sevil" operasının I pərdəsindən); Balaşın mahnısı ("Sevil" operasının II, III, IV pərdəsindən).

**30. "Sevil" operasından Sevilin ariozo və ariyası:** fortepiano ilə oxumaq üçün = Ариозо и ария Севиль из оперы «Севиль»: для голоса с фортепиано / Fikrət Əmirov; söz. E.Tələt; tərc. P.Pançenko; [red. B.Məmmədova]. – Bakı: Azmusnəşr, 1955. – 19 s. – Mətn paralel olaraq Azərbaycan və rus dilindədir.

***İçindəkilər:*** Nəşriyyatdan; Sevilin ariyası ("Sevil" operasının I pərdəsindən); Sevilin ariyası ("Sevil" operasının II pərdəsindən).

**31. "Sevil" operasından son mahnı:** fortepiano ilə tək oxuyan və xor üçün = Заключительная песня из оперы «Севиль»: для голоса и хора с фортепиано / Fikrət Əmirov; söz. E.Tələt; tərc. P.Pançenko; [red. B.Məmmədova]. – Bakı: Azmusnəşr, 1955. – 7 s. – Mətn paralel olaraq Azərbaycan və rus dillərindədir.

### 1956

**32. Alban xalq mövzuları üzrə süita**: 2 fortepiano üçün = Сюита на албанские народные темы: для 2-х фортепиано / Fikrət Əmirov, Elmira Nəzirova. – Bakı: Azmusnəşr, 1956. – 46 s. – Mətn paralel olaraq Azərbaycan və rus dillərindədir.

**33. Uşaq pyesləri:** fortepiano üçün = Детские пьесы: для фортепиано / Fikrət Əmirov; [red. B. Məmmədova]. – Bakı: Azmusnəşr, 1956. – 11 s. – Mətn paralel olaraq Azərbaycan və rus dillərindədir.

***İçindəkilər:*** Mahnı: Alban xalq mövzusu əsasında; Oyun: Alban xalq mövzusu əsasında; Lirik rəqs; Skerso: Alban xalq mövzusu əsasında; Vals; Tarantella.

### 1957

**34. Kor ərəbin mahnısı:** (Hüseyn Cavidin "Şeyx Sənan" dramasına yazılmış musiqidən) = Песня слепого араба: (из





музыки к драме Гусейна Джавида «Шейх Санан»): Fortepiano ilə oxumaq üçün / Fikrət Əmirov; tərc. Y.Fidler; red. B.Məmmədova. – Bakı: Azmusnəşr, 1957. – 7 s. – Mətn paralel olaraq Azərbaycan və rus dillərindədir.

**35. Sevil:** proloq və epiloqlu 4 pərdəli opera = Севиль: опера в 4-х действиях с прологом и эпилогом: (Cəfər Cabbarlının eyniadlı draması üzrə) / Fikrət Əmirov; libretto T.Əyyubov; tərc. P.Pançenko; [red.: B.Zeydman, B.Məmmədova]. – Klavir. – Bakı: Azmusnəşr, 1957. – 323, [1] s. – Mətn paralel olaraq Azərbaycan və rus dillərindədir.

***İçindəkilər:*** Pro35loq: 1. Uvertüra-proloq; I Pərdə: Sevilin ariozosu; Balaşın ariozosu; Sevil və Balaşın səhnəsi; Sevilin ariozosu; Atakişinin kupletləri; I səhnə; Laylay; II səhnə və Gülüşün ariozosu; III səhnə; Dilbərin nəğməsi; IV səhnə; Komik düet; V səhnə; Vals; VI səhnə; Birinci pərdənin sonu. – II Pərdə: Müqəddimə; I səhnə; II səhnə; III səhnə, Taftanın nəğməsi; IV səhnə; Sevilin ariyası; V səhnə və xor. – III Pərdə: Sentimental romans; I səhnə; II səhnə; Balaşın ariyası; III səhnə; Sekstet; Sevilin monoloqu və IV səhnə. – IV Pərdə: Müqəddimə; Xor; I səhnə. Məktəbli nəğməsi və rəqsi; Atakişi və Balakişinin dueti; II səhnə və Gülüşün balladası; III səhnə; IV səhnə; Balaşın ariyası; V səhnə; VI səhnə; Sevil və Balaşın dueti; VII səhnə; Epiloq.

### 1958

**36. Şur simfonik muğamı**: Simfonik orkestr üçün = Симфонический мугам Шур: для симфонического оркестра / Fikrət Əmirov; [red. B.Məmmədova]. – Partitura. – Bakı: Azmusnəşr, 1958. – 87 s.

***İçindəkilər:*** Giriş; Təsnif; Şur-Şahnaz; Rəng; Bayatı; Təsnif; İraq; Simai-Şəms.

**37. Uşaq lövhələri**: fortepiano üçün = Детские картинки: для фортепиано / Fikrət Əmirov; [red. B.Məmmədova]. – Bakı: Azmusnəşr, 1958. – 15 s.

***İçindəkilər:*** Nağıl; Gəzinti; Mahnı (Alban xalq mövzusu əsasında); Sevilin rəqsi; Məzəli rəqs; Laylay; Kuklaların rəqsi;

Oyun (Alban xalq mövzusu əsasında); Lirik rəqs; Skerso; Vals; Tarantella.

**1959**

**38. Kürd ovşarı simfonik muğamı**: simfonik orkestr üçün = Симфонический мугам Кюрд овшары: для симфонического оркестра / Fikrət Əmirov; [red. B.Məmmədova]. – Bakı: Azmusnəşr, 1959. – 75, [1] s.

"Kürd ovşarı" simfonik muğamının partiturası ilk dəfə Moskvada 1951-ci ildə çap olunmuşdur. Muğamların bütün quruluş və lad düzülüşü xüsusiyyətlərini saxlayaraq, bəstəkar "Kürd ovşarı" simfonik muğamında rapsodik tərzdə kompozisiya yaratmışdır.

**39. Məhəbbət mahnıları**: fortepiano ilə oxumaq üçün = Песни любви: для голоса с фортепиано / Fikrət Əmirov; söz. T.Əyyubov; [red. Ş.Kərimova]. – Bakı: Azmusnəşr, 1959. – 26, [1] s. – Mətn paralel olaraq Azərbaycan və rus dillərindədir.

Məcmuəyə Fikrət Əmirovun musiqili səhnə əsərlərindən parçalar daxil edilmişdir.

***İçindəkilər*:** Kor ərəbin mahnısı: (Hüseyn Cavidin "Şeyx Sənan" dramasına yazılmış musiqidən); Saqinin mahnısı: (Mehdi Hüseynin "Cavanşir" pyesinə yazılmış musiqidən); "Gözün aydın" musiqili komediyasından Leylanın ariozası; Mahnı (Mehdi Hüseynin "Cavanşir" pyesinə yazılmış musiqidən); "Gözün aydın" musiqili komediyasından Alayın ariozası.

**1960**

**40. İki mahnı**: fortepianonun müşayiətilə xor üçün = Две песни: для хора в сопровождении фортепиано / Fikrət Əmirov; tərc. V.Qafarov. – Bakı: Azmusnəşr, 1960. – 11 s. – Mətn paralel olaraq Azərbaycan və rus dillərindədir.

***İçindəkilər:*** Odlar ölkəsi / Söz. T.Mütəllibov; Dəniz neftçiləri nəğməsi / Söz. T.Əyyubov.

**41. "Səhər" kinofilmindən mahnılar:** fortepiano ilə oxumaq üçün = Песни из кинофильма «Утро»: для голоса с фортепиано / Fikrət Əmirov; tərc. V.Qafarov; [red. R.Rəhimova]. – Bakı: Azmusnəşr, 1960. – 9, [1] s. – Mətn paralel olaraq Azəbaycan və rus dillərindədir.

***İçindəkilər:*** Laylay; Aslanın mahnısı / Söz. N.Xəzri.

**1961**

**42. İki prelüdiya:** fortepiano üçün: ikinci redaktə = Две прелюдии: для фортепиано: вторая редакция / Fikrət Əmirov; [red. R.Rəhimova]. – Bakı: Azmuznəşr, 1961. – 8 s. – Mətn olaraq Azərbaycan və rus dillərindədir.

**43. Məhəbbət mahnıları**: fortepiano ilə oxumaq üçün = Песни любви: для голоса с фортепиано / Fikrət Əmirov; red. R.Rəhimova; tərc. T.Əyyubov, Y.Fidler, Q.Stroqanov. – Bakı: Azmusnəşr, 1961. – 26 s. – Mətn paralel olaraq Azərbaycan və rus dillərindədir.

***İçindəkilər***: Kor ərəbin mahnısı (Hüseyn Cavidin "Şeyx Sənan" dramasına yazılmış musiqidən); Saqinin mahnısı (Mehdi Hüseynin "Cavanşir" pyesinə yazılmış musiqidən); "Gözün aydın" musiqili komediyasndan Leylinin ariozası; Mahnı (Mehdi Hüseynin "Cavanşir" pyesinə yazılmış musiqidən); "Gözün aydın" musiqili komediyasından Alayın ariozası.

**1962**

**44. Bip-bipin nəğməsi**: fortepiano ilə oxumaq üçün uşaq mahnıları məcmuəsi = Спутник: Сборник детских песен: для голоса с фортепъяно / Fikrət Əmirov; tərc. M.Pavlova; red. M.Hacıyeva. – Bakı: Azmusnəşr, 1962. – 22 s. – Mətn paralel olaraq Azərbaycan və rus dillərindədir.

***İçindəkilər*:** Bip-bipin nəğməsi; Bizim həyət / Söz. T.Elçin. – Qatar; Quzum; Bahar gəlir / Söz. Z.Cabbarzadə.

**45. Gözün aydın:** 3 pərdəli 4 şəkilli musiqili komediya = Гёзюн айдын (с доброй вестью): музыкальная комедия в 3-х действях 4-х картинах / Fikrət Əmirov; libretto M.Əlizadə; şeirlər T.Əyyubov; tərc. V.Qafarov; musiqi məsl. Z.Stelnik; rəssamı K.Kazımzadə. – Bakı: Azmusnəşr, 1962. – 172 s. – Mətn paralel olaraq Azərbaycan və rus dillərindədir.

Əsərin sadə süjeti kolxozçu qız Leyli ilə kolxoz sədri, Sosialist Əməyi Qəhrəmanı Alayın sevgi əhvalatından bəhs edir.

***İçindəkilər***: Uvertüra. – Birinci pərdə: Leylinin mahnısı və qızlar xoru; Səhnə (Leyli, Mehparə, Tellon və qızlar); Səhnə (Mehparə, Tellon və qızlar); Tellonun mahnısı; Gövhər xalanın təsnifi; Leylinin ariozosu; Rəqs; Məşq səhnəsi; Final. – İkinci pərdə: 1-ci şəkil: Alayın ariozosu; Nargilə və Qəhrəmanın kupletləri; Tellonun mahnısı; Leylinin mahnısı (məhəbbət mahnısı); Leylinin ariozosu. – 2-ci şəkil: Səhnə (Salyanski və xor); Lirik rəqs (üzümün yığılması); Yallı; Final. – Üçüncü pərdə: İntroduksiya; Leylinin mahnısı; Alayın ariozosu; Qəhrəman və Əlmərdanın dueti; Gövhər xala və Əlmərdanın dueti; Leyli və Alayın dueti (məhəbbət mahnısı); Səhnə (Leyli, Alay və qonaqlar); Moldav rəqsi; Final. – Əlavə. "Gözün aydın" musiqili komediyasının librettosu.

**1963**

**46. 12 miniatür**: fortepiano üçün [dərslik] / Fikrət Əmirov; naşir Q.İsabəyli. – Bakı: [s. n.], 1963. – 22 s. – Mətn paralel olaraq Azərbaycan və rus dillərindədir.

***İçindəkilər:*** Ballada; Aşıqsayağı; Noktürn; Yumoreska; Lirik rəqs; Ovda; Laylay; Vals; Barkorola; Tokkato; Elegiya; Marş.

**1964**

**47. Simfoniya**: simli orkestr üçün: Dahi Azərbaycan şairi Nizaminin xatirəsinə = Симфония: для струнного оркестра / Fikrət Əmirov. – Partitura. – Bakı: Azmusnəşr, 1964. – 78 s. – Mətn paralel olaraq Azərbaycan və rus dillərindədir.

**1965**

**48. Üzeyir Hacıbəyova xatirə**: kamera orkestri üçün = Посвящение Узеиру Гаджибекову: для камерного оркестра / Fikrət Əmirov. – Bakı: Azərnəşr, 1965. – 19, [1] s. – Mətn paralel olaraq Azərbaycan və rus dillərindədir.





**1966**

**49. Ərəb mövzuları əsasında konsert**: fortepiano ilə orkestr üçün: iki fortepiano üçün köçürmə = Концерт на арабские темы: для фортепиано с оркестром: переложение для двух фортепиано / Fikrət Əmirov, Elmira Nəzirova. – Bakı: Azərnəşr, 1966. – 77 s. – Mətn paralel olaraq Azərbaycan və rus dillərindədir.

**50. Şur simfonik muğamı** = Симфонический мугам Шур: / Fikrət Əmirov; fortepianoda dörd əllə çalmaq üçün köçürəni Musa Mirzəyev. – Bakı: Azərnəşr, 1966. – 38 s. – Mətn paralel olaraq Azərbaycan və rus dillərindədir.

***İçindəkilər***: Şur simfonik muğamı: Giriş; Şur; Təsnif; Şur-Şahnaz; Rəng; Bayatı; Rəng; Təsnif; İraq; Simayi-Şəms.

**1967**

**51. Sevil**: proloqla, 3 pərdə 4 şəkilli opera. C.Cabbarlının eyniadlı draması əsasında: fortepiano ilə oxumaq üçün köçürmə müəllifindir = Севиль: опера в 3-х действиях, 4-х картинах с прологом: по одноименной драме Джафара Джабарлы наовая редакция либретто Талета Эйюбова перевод М.Павловой переложение для пения с фортепиано автора = Opera in three acts /four scenes/ with prolocue based on the drama of the same title by Jafar Jabarli neb version libretto by Talet Eyubov translation by M.Pavlova arranced for voice and piano forte by the composer / Fikrət Əmirov; libretto T.Əyyubov. – Bakı: Azərnəşr, 1967. – 288, [2] s. – Mətn paralel olaraq Azərbaycan, ingilis və rus dillərindədir.

**1968**

**52. Azərbaycan:** simfonik süita = Азербайджан: симфоническая сюита = Azerbaijan: symphonis suite / Fikrət Əmirov; [red. R.Rəhimov]. – Bakı: Azərnəşr, 1968. – 91, [1] s. – Mətn paralel Azərbaycanaycan, rus və ingilis dillərindədir.

**53. Konsert**: fortepiano ilə Azərbaycan xalq çalğı alətləri orkestri üçün = Концерт: для фортепиано с оркестром Азербайджанских народных инструментов / Fikrət Əmirov, Andrey

Babayev; [red. R.Rəhimova]. – Bakı: Azərnəşr, 1968. – 111 s. – Mətn paralel olaraq Azərbaycan və rus dillərindədir.

**54. Uşaq albomu**: simfonik lövhələr: nəfəsli – taxta, zərb və simli alətlər üçün = Детский альбом: симфонические картинки: для деревянно-духовых, ударных и струнных инструментов / Fikrət Əmirov. – Bakı: Azərnəşr, 1968. – 47 s. – Mətn paralel olaraq Azərbaycan və rus dillərindədir.

***İçindəkilər:*** Nağıl; Gəzinti; Dağlar; Meşələr; Sevilin rəqsi; Cəmilin rəqsi; Niyə kədərlisən; Vals; Tez gedək evə.

**1969**

**55. Azərbaycan:** simfonik süita **=** Азербайджан: симфоническая сюита = Azerbaijan: symphonic suite / Fikrət Əmirov; [red. R. Rəhimova]. – Partitura. – Bakı: [s. n.], 1969. – 91, [1] s. – Mətn paralel olaraq Azərbaycan, rus və ingilis dillərindədir.

**56. Sevdiyim yardır mənim**: fortepiano ilə oxumaq üçün mahnılar = Любимый: песни для голоса с фортепиано / Fikrət Əmirov; tərc.: P.Pançenko [və b.]; [red. T.Bakıxanov]. – Bakı: Azərnəşr, 1969. – 48 s. – Mətn paralel olaraq Azərbaycan və rus dillərindədir.

